Günəş Şərqdən doğur!

№ 193 (5714), 2022-ci il

Qiymətі 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 22 oktyabr 2022-ci il (şənbə)



## Batan gəmi

İran hakimiyyəti gücsüzlüyünü nümayiş etdirir

İranın Qafandakı baş konsulluğunun açılış mərasiminə qatılan Xarici işlər naziri Hüseyn Əmir-Abdullahian İrəvanda erməni həmkarı Ararat Mirzoyanla da görüşüb. (Səh.7)

## Boris Conson, yoxsa Rişi Sunak...

Liz Trassı kimin əvəzləyəcəyi müzakirə olunur



**Böyük Britaniyada baş nazir postundan istefa verən Liz Trassı kimin əvəzləyəcəyi müzakirə olunur.**

Keçmiş Baş nazir Boris Consonun, eks maliyyə naziri Rişi Sunakın ön plana çıxacağına dair ilkin əlamətlər var. (Səh.4)

# Fransanın vasitəçiliyindən söhbət gedə bilməz

Makronun son çıxışlarında Praqa yox, "Ermənistan ruhu" daha çox hiss olunur



**Fransa uzun müddət Azərbaycana, bütövlükdə türk dünyasına qarşı qərəzli mövqedən çıxış edib. Hazırda rəsmi Parisin niyyəti geopolitik baxımdan normadan artıq iddialı görünmək və Cənubi Qafqazdakı proseslərə müdaxilə etməkdir. Daha doğrusu, Fransa bölgədə Rusiyanı əvəzləməyə çalışır. Fransanın Azərbaycandakı səfiri Zakari Qrosun son məqaləsi də bunu açıq-aşkar büruzə verir.** (Səh.8)



## Qardaşlar qərarlıdır

Zəngəzur dəhlizi nəyin bahasına olursu-olsun açılacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilana səfəri Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin simvolik əhəmiyyətini özündə ehtiva edirdi.** Eyni zamanda hərbi-siyasi birlik modelinin bərkidilməsinə xidmət edən yeni planların hazırlanmasının göstəricisidir. Ötən il işğaldan azad edilmiş ərazilərin Qarabağ iqtisadi rayonuna düşən coğrafiyasında, Füzulidə aeroport istifadəyə verilmişdi. (Səh.4)




## "Azərbaycan tərəfində olan erməni qüvvələri geri çəkilməlidir"

Toivo Klaar: "Ümid edirik ki, sərhəd komissiyalarının Brüsseldə keçiriləcək növbəti iclası müəyyən konkret nəticələr əldə etməyə kömək edəcək"

Biz Ermənistanla Azərbaycanın Avropa İttifaqının (Aİ) müşahidəçiləri ilə əməkdaşlıq edib vəziyyətin sabitləşməsinə töhfə verəcəklərini və bununla da sülh danışıqları üçün əlverişli mühitin yaradılmasına, eyni zamanda, sərhəd komissiyalarının məqsədyönlü işinə imkan yaradacaqlarını gözləyirik. (Səh.5)

# Kəlbəcərdə təminat daşıyan texnikamız atəşə tutulub

"Ermənistan sülh sazişini sabotaj edə biləcək bir vəziyyətə gəlib"



**Azərbaycan ordusunun təminat daşıyan texnikası erməni silahlı birləşmələri tərəfindən atəşə tutulub.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində bölmələrimizə təminat daşıyan 1 ədəd "KamAZ" markalı avtomobil də Ermənistan hərbi bölmələri tərəfindən atəşə məruz qalıb. Texnikaya zərər dəysə də şəxsi heyət arasında xəsarət alan olmayıb. (səh.3)

## Laçında iki nəfər minaya düşüb

Xəsarət alanlar xəstəxanaya çatdırılıb



**Dünən Laçın rayonunun Suarası kəndində, minalardan təmizlənməmiş ərazidə 2 nəfər piyada əleyhinə minanın partlaması nəticəsində xəsarət alıb.**

Bu barədə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, ilkin məlumata əsasən, hadisə nəticəsində Həmidov Elsevər Sovet oğlu və Həsənov Səbuhi Telman oğlu xəsarət alıb.

Minaya düşən şəxslər xəstəxanaya çatdırılıb. Hazırda onların müalicəsi davam etdirilir.

## Pediatr üsyan etdi

"Bir yandan dərs yükü uşaqların belini büküb, bir yandan da məktəbli çantaları"



**Bakıda 8-ci sinif şagirdi vəfat edib.**

Paytaxtın Binəqədi rayonu ərazisində yerləşən Zəngilan rayon 4 mömrəli tam orta məktəbin şagirdi Abduləzimli Dəniz dünyasını dəyişib. Azyaşlının uzun sürən xəstəlikdən sonra vəfat etdiyi bildirilir. (səh.12)



## Deputat İrana "od püskürdü"

"Yer qəhətdir ki, gəlib Araz sahilində təlimlər keçirirsiniz" (səh.6)



## Xankəndi məsələsində həlledici məqam yetişib

"Bakı təbii ki, Araik və dəstəsi ilə təmas qurmayacaq, lakin bu kartı sıradan çıxarmaq istiqamətində də addım atılmalıdır" (səh.5)



# Prezident xəstəxanada Binəli Yıldırım və Şamil Ayrıma baş çəkib

## Dövlət başçısı xəsarət alanlarla söhbət edib, onların tezliklə sağalmalarını arzulayıb

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfər proqramı çərçivəsində Qarabağda olan hakim Ədalət və İnkişaf Partiyası (AKP) sədrinin müavini, sabiq baş nazir Binəli Yıldırım və millət vəkili Şamil Ayrım yol qəzasına düşüblər.**

Binəli Yıldırımın içərisində olduğu avtomobil Cəbrayıldan qayıdarkən döngədə idarəetməni itirərək qəzaya düşüb. Qəza nəticəsində təhlükəsizlik yastıqları açılan avtomobildən çıxarılan Yıldırım təcili yardımla hadisə yerini tərk edib. Daha sonra B.Yıldırım Mərkəzi Klinik Xəstəxanasına yerləşdirilib. Türkiyənin Səhiyyə naziri Fahreddin Koca Cəbrayılda qəzaya düşmüş keçmiş baş nazir Binəli Yıldırımın səhhəti ilə bağlı məlumat yayıb və vəziyyətinin yaxşı olduğunu bildirib: "Mən onunla danışdım. Öyrəndim ki, onların üçünün də səhhəti yaxşıdır, qəzadan yüngülcə xilas olublar. Yenidən şəfa diləklərimi çatdırıram".

Hadisədən sonra Prezident İlham Əliyev Binəli Yıldırıma, Şamil Ayrıma



və mühafizəçi Oğuzhan Dəmirçiyə xəstəxanada baş çəkib. Dövlət başçısı xəsarət alanlarla söhbət edib, onların tezliklə sağalmalarını arzulayıb. Binəli Yıldırım, Şamil Ayrım və Oğuzhan Dəmirçi də öz növbəsində qəza yerindən operativ olaraq helikopterlə Bakıya xəstəxanaya çatdırılmalarına və onların dərhal tibbi müayinədən keçirilərək müalicə almalarına görə dövlətimizin başçısına və tibb heyətinə dərin minnətdarlıqlarını bildiriblər.

Mərkəzi Klinik Xəstəxanada müayinəsi həyata keçirilən Binəli Yıldırım, millət vəkili Şamil Ayrım və mühafizəçi Oğuzhan Dəmirçi Türkiyəyə yola salınıblar. Onlar Atatürk Hava Limanından təyyarə ilə Başakşehir Çam və Sakura xəstəxanasına aparılıblar.

**Türkiyə səfiri Cahit Bağçı "Twitter"də bildirib ki, hər üçünün səhhəti yaxşıdır: "Türkiyəyə yola saldıq".**

Azərbaycanda səfərdə olarkən yol qəzası keçirən deputat Şamil Ayrım da qəza ilə bağlı paylaşım edib: "Azərbaycan səyahətimizdə hörmətli Binəli Yıldırım ilə eyni avtomobildə yol qəzası keçirdik. Allaha şükürlər olsun, vəziyyətimiz yaxşıdır. Hər ehtimala qarşı həkim nəzarəti altındayıq. "Keçmiş olsun" arzularını çatdıran hər kəsə təşəkkür edirəm".

**İsmayıl**

# Əhməd Bakıxanovun 130 illiyi qeyd ediləcək



**Prezident İlham Əliyev Əhməd Bakıxanovun 130 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

2022-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, ustad tarzən və mahir pedaqoq, Xalq artisti Əhməd Məmmədrza oğlu Bakıxanovun anadan olmasının 130 ili tamam olur.

Əhməd Bakıxanov daim axtarışlarla dolu geniş və çoxşaxəli yaradıcılığı ilə Azərbaycanın musiqi sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Muğam aləminin mükəmməl bilicisi olan və tar ifaçılığının sirlərinə dərindən yiyələnən, yüksək istedada malik sənətkar xalqımızın bu misilsiz mədəni-mənəvi irsini bütün fəaliyyəti boyu klassik ənənələrə sədaqətlə qoruyub yaşatmışdır. Onun ifa etdiyi muğamlar, eləcə də bəstələdiyi mahnı, rəng və təsniflər parlaq sənət nümunələri kimi musiqimizin qızıl fondunda özünəməxsus layiqli yer tutur. Əhməd Bakıxanovun təşkilatçısı və uzun illər ərzində rəhbəri olduğu xalq çalğı alətləri ansamblı zəngin repertuarı ilə seçilmiş və ölkənin mədəni həyatında yaxından iştirak etmişdir. Musiqi salnaməmizə mühüm səhifələr yazmış tar ifaçılarının bütöv bir nəsli məhz Əhməd Bakıxanovun yetirmələridir.

Sərəncamda qeyd edilir ki, Mədəniyyət Nazirliyi Xalq artisti Əhməd Bakıxanovun 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Müşahidə Şurası yaradılır

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün Müşahidə Şurası yaradılır.**

Bu, Prezident İlham Əliyevin imzaladığı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi və "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" Fərmanında dəyişiklik edilməsi barədə Fərmanında əksini tapıb.

Fərmana dəyişikliklə Müşahidə Şurası sədr də daxil olmaqla 5 üzvdən ibarət olacaq.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyətinə cari rəhbərliyi İdarənin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirəcək.

# "Böyük Qayıdış" yaxınlaşır

## Prezidentin hər bir səfəri Qarabağa yeni nəfəs gətirir

**Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına etdiyi hər bir səfəri, işğaldan azad olunmuş bölgələrin bərpasını sürətləndirir.**

Bölgədə iqtisadi inkişafın təməlini təşkil edən yol-nəqliyyat infrastrukturu, energetika sistemi yaradılır, sosial obyektlər, aqroparklar istifadəyə verilir. Ekoloji proqramlar həyata keçirilir. Təbii ki, dövlət başçısının budəfəki səfərinin əhəmiyyətini artıran, qardaş Türkiyənin lideri Rəcəb Tayyib Ərdoğanın ölkəmizə gəlməsi və Qarabağın ikinci qapısı, Zəngilan beynəlxalq hava limanının açılışında iştirak etməsidir.

**Millət vəkili Nəsib Məhəməliyev vurğulayıb ki, müharibədən iki ilə yaxın müddət keçməsinə rəğmən, hələ də Ermənistanla sülh müqaviləsi imzalanmayıb. Deputat qeyd edib ki, acı məğlubiyyətdən düzgün nəticə çıxarmayan Ermənistan rəhbərliyi Şərqlə Qərb arasında vurnuxmaqdadır:** "İrəvan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Müxtəlif xarici qüvvələrə arxalanaraq, üçtərəfli bəyanatların icrasından yayınır. Avropa İttifaqı bölgəyə müşahidəçi missiya göndərir. İran sərhədlərimizdə irimiqyaslı hərbi təlimlər keçirir, yüksək çinli siyasətçiləri, hərbiçiləri bütün etik normaları pozmaqla, ölkəmizi təhdid edir, cəfəng bəyanatlar səsləndirirlər. Əlbəttə, istənilən ölkə hərbi təlimlər keçirə bilər. Ancaq Araz çayı üzərində panton körpülərin salınması və bu körpülər vasitəsilə ağır hərbi texnikanın qarşı tərəfə keçidinin nümayişkaranə şəkildə göstərilməsi, xoş niyyətdən irəli gəlmir. Dəfələrlə izahat verilməsinə baxmayaraq, molla rejimi anlamaq istəmir ki, Azərbaycan heç bir ölkənin sərhədlərini dəyişmir, heç bir ölkəni blokadaya almır. Sadəcə, bütün region ölkələrinin iqtisadi inkişafına xidmət edəcək, tədricən xalqlar arasında



etimad mühitini formalaşdıracaq Zəngəzur dəhlizinin açılmasını tələb edir. Dəhlizin açılmasına qarşı İranın tutduğu mövqe tam yanlışdır və heç bir normal məntiqə sığmır. Ölkəni bürümüş iğtişaşlarda, kütləvi aksiyalarda gənclər, mollalardan terror təşkilatlarına xərclənən milyardların hesabatlarını tələb edirlər. Belə bir şəraitdə cənab Ərdoğanın, qardaş ölkənin hərbi-siyasi rəhbərliyindən ibarət böyük bir heyətlə ölkəmizə səfəri və konkret ünvanlara yönəlik konkret mesajları, son dərəcə əhəmiyyətlidir. Regionda sülhün əldə olunmasına mane olanlar, Ermənistanın 30 illik cinayətlərini görməzdən gələrək, ona dəstək verənlər bir daha gördülər ki, Azərbaycan tək deyil. İki qardaş ölkə Azərbaycan-Türkiyə, iki qardaş lider ən mürəkkəb çağırışların öhdəsindən layiqincə gəlməyi və dövlət maraqlarımızı ən yüksək səviyyədə qorumağı bacardıqlarını dəfələrlə sübut ediblər".

**Parlament üzvü bildirib ki, cənab Prezidentin hər bir səfəri Qarabağa yeni nəfəs gətirir, "Böyük Qayıdış" yaxınlaşır:** "Ağır müharibədən çıxmağımıza rəğmən, qısa zaman kəsiyində həyata keçirilən infrastruktur layihələri, tikinti-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətini göstərir. Hörmətli Ərdoğan çox gözəl ifadə elədi: "Belə layihələri hər bir ölkə icra edə bilməz". Beynəlxalq ictimaiyyət kimin qurucu, kimin dağıdıcı olduğunu açıq etiraf etməsə də reallığı yaxşı görür".

**İsmayıl Qocayev**

# “Uzun illər sonra bölgədə davamlı sülh şansı yaranıb”

## Rəcəb Tayyib Ərdoğan: “Bütün səmimiyyətimizlə Ermənistanın bu tarixi fürsəti dəyərləndirməsini gözləyirik”



**”Biz də Şuşada Baş konsulluq açırıq”. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan səfərindən geri dönərkən yerli mediaya müsahibəsində deyib. Ərdoğan bildirib ki, Qarabağın inkişafına şahid olmaq onu hədsiz dərəcədə sevindirdi:**

”Azərbaycanlı qardaşlarımız işğaldan azad edilmiş torpaqlarında başladıqları yenidənqurma və inkişaf prosesini sürətlə davam etdirirlər”. Ərdoğan xatırladıb ki, ötən il, o, Şuşada, Füzulidə olarkən işğaldan azad edilmiş torpaqlarda aparılan işlərlə yerində tanış olub: ”Qarabağın bir ildən sonra gəldiyi nöqtəni görmək, onun günü-gündən inkişafının şahidi olmaq, sözün düzü, məni hədsiz dərəcədə sevindirdi. Bu layihələrdə qurumlarımızın və türk şirkətlərinin payının olması bizim üçün qürurvericidir. Bu münasibətlə bütün Azərbaycan xalqını, xüsusən də qardaşım İlham Əliyevi təbrik etmək istəyirəm. İnanıram ki, Azərbaycanın investisiya addımları ilə Qarabağ tezliklə regionun parlayan ulduzuna çevriləcək”. Türkiyə lideri diqqətə çatdırıb ki, Zəngilanda açılış mərasimində iştirak etdiyi beynəlxalq hava limanı sadəcə Azərbaycan üçün deyil, bütün bölgə üçün əhəmiyyətlidir.

**“Azərbaycan Prezidenti Avropanın qaza tələbatını TANAP-la qarşılamağa dair müsbət fikirdədir”**

**Ərdoğan deyib ki, Azərbaycan Prezidenti Avropanın qaza tələbatını TANAP-la qarşılamağa dair müsbət fikirdədir:** ”Avropa hazırda Rusiyadan istədiyi anda, istədiyi kimi təbii qaz əldə edə bilmir. Avropanın hazırda Türkiyədən gözləntisi ölkəsində Avropaya nəql ediləcək təbii qaz qovşağının yaradılacağı təqdirdə tələblərin qarşılanıb-qarşılanmaması ilə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyev də TANAP vasitəsilə qaz ehtiyacının təmin olunması məsələsində müsbət fikirdədir. Bütün bunları dəyərləndirib ondan sonra addım atacağıq”.

**“Azərbaycan Şimali Kiprin TDT-yə üzv olmasını dəstəkləyir”**

**Ərdoğan vurğulayıb ki, Azərbaycan Şimali Kiprin TDT-yə üzv olmasını dəstəkləyir:** ”Azərbaycan Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatına (TDT) üzv olmasını dəstəkləyir”. Ərdoğan qeyd edib ki, o, bu nəticəyə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündən sonra gəlib: ”TDT-yə üzv ölkələr həqiqətən bizim üçün bu məsələdə müsbət siqnal verməli olan ölkələrdir. Yəni Türk Dövlətləri Təşkilatı olaraq keçirdiyimiz ikitərəfli görüşlərdə həmişə ”Türkiyə bu mövzuda hansı addımı atırsa, biz də təbii ki, onun yanındayıq” deyirlər. Əslində qardaşım İlham Əliyevlə keçirdiyimiz görüşdə də mövqe belə idi”. Türkiyə lideri, Şimali Kipr Türk Respublikası ilə bağlı Türkiyənin Birləşmiş Millətlər Təşkilatına təqdim etdiyi bəyanatlar istiqamətində türk dövlətlərinin liderlərinin ortaq bir işin görülməsinə ümid etdiyini də vurğulayıb.

**Türkiyə prezidenti deyib ki, bütün səmimiyyətilə Ermənistanın bu tarixi fürsəti dəyərləndirməsini gözləyir:** ”Uzun illər sonra bölgədə davamlı sülh şansı yaranıb. Azərbaycan-Ermənistan müzakirələrindəki irəliləyişin Türkiyə-Ermənistan arasında normallaşma prosesinə müsbət töhfə verəcəyi şübhəsizdir. Qardaş Azərbaycanla əməkdaşlığımızı ”tək millət, iki dövlət” şüarı ilə hər sahədə daha da gücləndirməkdə qətiyyətliyik. Səfərimin sadəcə ikitərəfli əlaqələr baxımından yox, bütün bölgəmiz üçün xeyirlərə vəsilə olmasını arzulayıram”.

**“Naxçıvan və Azərbaycanın qərb bölgələri arasında yolun açılması mühüm addımdır”**

**Türkiyə rəhbəri bildirib ki, Naxçıvan və Azərbaycanın qərb bölgələri arasında yolun açılması mühüm addımdır:** ”Azərbaycana səfərim zamanı ikitərəfli əlaqələri, eyni zamanda, regional və beynəlxalq prosesləri Prezident İlham Əliyevlə müzakirə etdik. Cənubi Qafqaza yönəlik ortaq baxışımızın sülh, sabitlik və inkişaf təməlində inşa edildiyini bir daha təsdiqlədik. Sərhədlərin müəyyənləşdirilməsi, Naxçıvan və Azərbaycanın qərb bölgələri arasında əlaqə yolunun açılması və sülh müqaviləsinin imzalanması bölgənin normallaşması üçün mühüm addımları təşkil edəcək”.

**“Taxıl sazişinin uzadılmasında heç bir maneə yoxdur”**

**Ərdoğan bəyan edib ki, taxıl sazişinin uzadılmasında heç bir maneə yoxdur:** ”Taxıl daşınması sazişi” çərçivəsində 363 gəmi, 8 milyon ton taxıl və digər ərzaq məhsulları dünya bazarlarına çıxarılıb”. O qeyd edib ki, Ukrayna limanlarından yola düşən yüklərin 62 faizi Avropaya, 19,5 faizi Asiyaya, 13 faizi Afrikaya, 5,3 faizi isə Yaxın Şərq ölkələrinə çatıb. Ərdoğanın sözlərinə görə, digər tərəfdən, ən az inkişaf etmiş ölkələrə 454 min 626 ton buğda göndərilib və bu, ümumi həcmin cəmi 5,7 faizini təşkil edir. Türkiyə Prezidenti Taxıl sazişinin uzadılmasında heç bir maneənin olmadığını vurğulayıb: ”Mən bunu dünən axşam Zelenski ilə telefon danışığımda və cənab Putinlə də müzakirədə bir daha anladım. Amma bu arada hər hansı tıxanma varsa, onu aradan qaldırmaq üçün bizim üçün heç bir maneə yoxdur”.

**İsmayıl**

# Kəlbəcərdə təminat daşıyan texnikamız atəşə tutulub

## “Ermənistan sülh sazişini sabotaj edə biləcək bir vəziyyətə gəlib”



**Azərbaycan ordusunun təminat daşıyan texnikası erməni silahlı birləşmələri tərəfindən atəşə tutulub.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində bölmələrimizə təminat daşıyan 1 ədəd ”KamAZ” markalı avtomobil də Ermənistan hərbi bölmələri tərəfindən atəşə məruz qalıb. Texnikaya zərər dəysə də şəxsi heyət arasında xəsarət alan olmayıb.

*Hərbi ekspert Elxan Şıxəliyev hadisəni ”Şərq”ə şərh edərkən bildirib ki, bölmələrimizə təminat daşıyan avtomobilin atəşə məruz qalması təsadüfi deyil:* ”Həmin ərazidə infrastruktur elə qurulub ki, bölmələrimizin döyüş mövqelərini və istifadə olunan nəqliyyat vasitələrinin çoxunu Ermənistan silahlı qüvvələri müşahidə və atəş altına ala bilər.

Bəzi marşrutlar Ermənistan tərəfinin onlarda hərəkət edə biləcək hərbi texnikamızı və mövqelərimizi atəşə tuta bilməsinə şərait yaradır. Dolayısıyla ön xətt bölmələrimiz, birləşmə komandalarımız bunları nəzərə almalıdırlar.

Bilməlidirlər ki, tərəflər arasında sülh sazişi olmadıqca ermənilər hər an belə təxribatlar törədə, eyni zamanda, atəşkəsi poza bilərlər. Onlar xüsusən də həmin ərazidə olan Azərbaycan Silahlı Qüvvələrini böyük çapda əməliyyata qarşılıq verməyə məcbur edəcəklər. Nəticə etibarilə yeni dislokasiya rayonlarımız yaranacaq. Bu, Ermənistan tərəfindən hesablanmış böyük oyunun hissələridir”.

**E.Şıxəliyevin fikrincə, Avropa İttifaqının heyətlərinin bu ərazidə olması, Fransa prezidentinin məlum müsahibəsi və SEPAH-ın Ermənistanın cənub sərhədlərində üç günlük təlimlər keçirilməsi fonunda rəsmi İrəvan aqressiv, sülh sazişini sabotaj edə biləcək bir vəziyyətə gəlib:** ”Avropa İttifaqının sərhəd məsələlərində yardımçı olacaq koordinasiya zirehli heyətlərinin təmas vəziyyətində olan məntəqələrdə fəaliyyətini icra etməsi də Ermənistanı bir az da cəsarətləndirəcək.

O, atəşkəsin pozulması hallarını daha da artıracaq. Hər bir halda sülh sazişinə gedilən bir yolda Ermənistan tərəfindən belə addımların atılması onun öz vəzifələrinin arxasından qaçması ilə nəticələnəcək” .

**Günəş Mərd**

# Mətbuat Şurasında görüş keçirilib

## Sosial media fəalları Şurada sosial şəbəkələrlə bağlı komissiyanın formalaşdırılmasını təklif ediblər

**Dünən Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə sosial mediada (instagram ve telegram) aktiv kanal rəhbərləri və səhifə idarəçiləri ilə görüş keçirilib.**

Şuradan ”Şərq”ə bildirilib ki, iyirmiyə yaxın sosial media fəalı olan jurnalistin dəvət edildiyi görüşü giriş sözü ilə Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq iştirakçıları rəhbərlik etdiyi qurumun missiyası barədə məlumatlandırıb. O bildirib ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da informasiya məkanı genişlənməkdədir. Bir zamanlar internet üzərindən yayımlanan kütləvi informasiya vasitələri ənənəvi medianı sıxışdırırdısa, artıq sosial mediadakı aktiv kanallar və səhifələr cəmiyyətdə populyardırlar. Onlar ictimai rəyə təsirləri getdikcə artmaqdadır. Azərbaycan Mətbuat Şurası bu təsirin ictimai faydalarını görmək istəyir.



MŞ sədri çıxışında onu da bildirib ki, görüş həm Azərbaycan Mətbuat Şurasını narahat edən məqamlara aydınlıq gətirmək, həm də sosial media fəallarının üzləşdikləri çətinliklərlə tanış olmaq məqsədi daşıyır. R.Məcid həmçinin Mətbuat Şurasının sosial şəbəkə istifadəçilərinə və vətəndaş mediası fəallarına müraciətinin də olduğunu vurğulayıb.

MŞ İdarə Heyətinin üzvü, qurumun Etika Komissiyasının sədri, professor Qulu Məhərrəmli çıxışında sözügedən müraciət barədə ətraflı məlumat verib. Q.Məhərrəmli MŞ-nin informasiya məkanındakı problemlərin media müstəvisində həllinin tərəfdarı olduğunu vurğulayaraq bildirib ki, söz və ifadə azadlığının dəyər kimi qorumaq vacibdir. Buna görə də etik prinsiplər önə çəkilməlidir.

MŞ İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli çıxışında informasiya məkanında ictimai maraq və mənafelərin qorunmasının peşə etikasına riayətdən asılı olduğunu əsaslandırıb və bildirib ki, bu, həm də cəmiyyətin gözləntisidir.

Sosial mediada fəal kanal rəhbərləri və səhifə idarəçiləri - Elçin Lənbəranski, Tofiq Şahmuradov, Zəminə Rüstəmova, Zəhra Əhmədova, Araz Əhmədov, Kamran Muradov, Pərviz Hüseyn, Nazim Qasımzadə çıxışlarında istinad, sosial mediada elmi kontent məsələləri üzərində dayanıblar. Onlar həmçinin Şurada sosial şəbəkələrlə bağlı komissiyanın formalaşdırılmasını təklif ediblər.

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb, Şuranın sosial şəbəkə istifadəçilərinə və vətəndaş mediası fəallarına müraciəti məqbul qiymətləndirilib.*

# Qardaşlar qərarlıdır

## Zəngəzur dəhlizi nəyin bahasına olursu-olsun açılacaq



### Bu, Bakı-Ankara gündəliyində prioritet təşkil edən mövzudur

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilana səfəri Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin simvolik əhəmiyyətini özündə ehtiva edirdi. Eyni zamanda hərbi-siyasi birlik modelinin bərkidilməsinə xidmət edən yeni planların hazırlanmasının göstəricisidir. Ötən il işğaldan azad edilmiş ərazilərin Qarabağ iqtisadi rayonuna düşən coğrafiyasında, Füzulidə aeroport istifadəyə verilmişdi.** Hava limanları hərbi-siyasi infrastrukturun tərkib hissəsi olduğundan, Ərdoğanın həm Füzuli, həm də Zəngilan aeroportlarının açılışına qatılması regional səmada təhlükəsizliyin qorunmasında Ankaranın rolunun artdığının əlaməti kimi şərh edilə bilər. Aeroportların ölkələr üçün strateji əhəmiyyəti ondan ibarətdir ki, hava hücumundan müdafiə strategiyasını beynəlxalq mərkəzləşmiş idarəetmə sistemi çərçivəsinin içərisinə daxil edir. Məntiq müdafiə sistemlərinin təkmilləşdirilməsini labüd edir. Azərbaycanın Avropa və Asiya arasındakı beynəlxalq ticarət, nəqliyyat-kommunikasiya xətləri qovşağındakı geosiyasi mövqeyi qlobal gərginlik səbəbindən regionda sabitliyin pozulmasına, milli təhlükəsizlik üçün təhdidlərin yaranmasına gətirib çıxara bilər. Ona görə də Azərbaycan və Türkiyə artan təzyiqlərin önünə keçmək vəzifələrini birlikdə inkişaf etdirir. Ankara Bakının strateji zəmanətçisi kimi önə çıxır.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, bu platforma Azərbaycanla Türkiyənin əməkdaşlığının regional çərçivələrdən çıxaraq beynəlxalq səviyyəyə qalxması prosesini sürətləndirir. Analitikə görə, Türkiyə beynəlxalq və regional səviyyədəki maraqlarını təhsil, elm, iqtisadiyyat, ticarətlə də təmin edir. Bu, Ankaranın hərbi mövcudluq dairəsinin böyüməsi üçün münbit şəraiti yetişdirir:** "Ona görə də, Türkiyə şirkətlərinin Qarabağda və Şərqi Zəngəzurdakı investisiya portfelləri Ankaranın Azərbaycana verdiyi təhlükəsizlik töhfələri üçün əlavə stimullar kimi qiymətləndirilməlidir. Ərdoğanın səfərini son günlər İrandan Azərbaycana qarşı ucalan hədələr fonunda da şərh etmək yerinə düşər. Düşünmək üçün kifayət qədər əsaslar var ki, Azərbaycan və Türkiyə liderləri bağlı qapılar arxasında Tehranın qızışdırıcı ritorikasını da müzakirə predmetinə çeviriblər. Dövlət başçısı İlham Əliyevin Ərdoğanla mətbuata birgə bəyanat zamanı soyuqqanlı tərzdə dediyi bu cümlə həmin istiqamət üzrə danışığın kodunu açan formul hesab olunmalıdır: "Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır". Bu bəyanat təkcə İrana qarşı deyil, həm də Rusiya-Ukrayna müharibəsinin coşdurduğu qlobal emosiyaları Cənubi Qafqaza da daşımaq istəyənlərə mesajdır və əks qütblərdə olan güclər hərəsi öz payını götürməlidir. Təhdidlərin üfüqlərdə bərq vurduğu zamanlarda Zəngəzur dəhlizinin açılması qarşısındakı maneələrin də aradan qaldırılması Bakı-Ankara gündəliyində prioritet təşkil edən mövzudur. Gələcək üçün Türkiyə tərəfindən də işarələr verilir ki, Zəngəzur dəhlizi nəyin bahasına olursa-olsun açılacaq və buna qarşı çıxan Ermənistan, koridorun iqtisadi deyil, strateji əsaslarından narahat olan İran ortaya çıxacaq nəticələrə görə məsuliyyəti özləri daşıyacaqlar".

**A.Kərimov vurğulayıb ki, Ərdoğan hələlik bunu yumşaq tonda dilə gətirib və deyib ki, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq reallıqdan uzaqdır. Yeni Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur:** "Dəhlizin açılmasını stimullaşdıracaq digər bir əlavə də hazırlanmaqdadır. Ölkə başçısı İlham Əliyevlə Ərdoğan Qumlaq dəmir yolu stansiyasının təməlini qoyarkən onlara bir layihə haqqında verilən məlumat həmin arqumenti gücləndirir. Ələt-Ağbənd-Naxçıvan-Qars dəmir yolu layihəsi masadadır ki, bu da Zəngəzur dəhlizinin tərkib hissəsi kimi şöhrət qazanan marşrut olmaq gücünə sahiblənə bilər. Regiondakı dəmir yolu layihələrində, limanlarda Çin investisiyalarının çoxluğu isə regional panorama üçün Pekinin Cənubi Qafqaz üzrə maraqlarını artıracaq. Şübhə etməmək lazımdır ki, Pekin həmin dəmir yolu layihəsini də özünün artan iqtisadi ekspansiya siyasətinin çərçivəsinə daxil edəcək. Azərbaycanla Türkiyə strateji müttəfiqlik əlaqələrini hərbi birlik modelini rəsmiləşdirmək səviyyəsinə qaldıracaq. Ermənistanın Zəngəzur dəhlizinə qarşı direnişi onun növbəti itkilərə məruz qalması ilə nəticələnəcək. Mümkündür ki, Əliyevlə Ərdoğan danışıqlarında həmin nəticəni ərsəyə gətirəcək hərbi güc tətbiqi barədə dəqiqləşdirmələr aparıblar. Rusiya bu nəticələrə əsaslı qarşı çıxan addımlar atmayacaq, çünki regiondakı Türkiyə mərkəzli layihələr Moskva üçün problem yaratmayacaq. İran isə Türkiyənin dəstəyi ilə Azərbaycanın sərhəddəki hərbi manevrlərinin Ermənistan üçün yaradacağı itkilərlə razılaşmaq məcburiyyətində qalacaq".

**İsmayıl Qocayev**



## Ərdoğan Putin və Zelenski ilə danışacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və Ukrayna liderləri, Vladimir Putin və Vladimir Zelenski ilə yaxın günlərdə telefon danışığı olacaq.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan səfərindən geri dönərkən yerli jurnalistlərə müsahibəsində deyib.

O qeyd edib ki, danışıq zamanı iki liderin Türkiyənin vasitəçiliyi ilə görüşünün təşkil olunmasının mümkün olub-olmaması müzakirə olunacaq. (apa)

Ərdoğanın sözlərinə görə, Rusiya lideri Vladimir Putin əvvəlki zamanla müqayisədə xeyli yumşaq mövqe nümayiş etdirir və danışıqlara açıqdır. Türkiyə Prezidenti ukraynalı həmkarı Zelenskinin də məsələ ilə bağlı yanaşmasında bir problemin olmadığını vurğulayıb.

## Boris Conson, yoxsa Rişi Sunak...

### Liz Trassı kimin əvəzləyəcəyi müzakirə olunur



**Böyük Britaniyada baş nazir postundan istefa verən Liz Trassı kimin əvəzləyəcəyi müzakirə olunur.**

Azərtac xəbər verir ki, keçmiş Baş nazir Boris Consonun, eks maliyyə naziri Rişi Sunakın ön plana çıxacağına dair ilkin əlamətlər var.

Yayın əvvəlində səs-küylə istefa verən Boris Consonun tərəfdarları onu geri qayıtmağa məcbur edirlər. Consondan başqa, keçən ay liderlik yarışında Trassa məğlub olan Rişi Sunak, Penni Mordauntdan başqa Ben Uolles, Maykl Qove, Tom Tugendhat, Ceyms Kleverli, Kemi Badenok və keçmiş daxili işlər naziri Suella Bravermanın liderlik yarışında iştirak edə biləcəyi düşünülür.

Karib adalarında tətildə olan Conson hələ ki, bu mövzuda açıqlama verməyib.

*Qeyd edək ki, 45 gün baş nazir vəzifəsini icra edən Liz Trass istefasını tələb edən millət vəkillərinin sayının artması səbindən vəzifəsindən istefa vermişdi.*

# Fransanı on illərdir yaxşı tanıyırıq

## Azərbaycanın könlünü almaq boş cəhdlərdir

**Fransanın Azərbaycandakı səfiri Zaxari Qrosun "Praqa ruhu"nun yaşaması və Makronun danışıqlarda iştirakını və əldə olunmuş nəticələri az qala Fransanın "xüsusi xidməti" kimi təqdim edib.**

Səfir son məqaləsində yazır ki, Aİ-nin sülh prosesinə fəal dəstəyi əvəzsizdir və Fransa prezidentinin iştirakı Praqada uğurlu nəticə əldə etmək üçün həlledici əhəmiyyətə malikdir... Yaşasın Praqa ruhu!

Digər tərəfdən isə Fransa XİN başçısı, prezidenti səviyyəsində verdiyi qərəzli və birtərəfli bəyanatlarla "Praqa ruhu"nu öldürür. Makronun son çıxışlarında isə Praqa yox, "Ermənistan ruhu" hiss olunur. Əgər Fransa həqiqətən regionda sülh istəyirsə, bu prosesə qarışmağa cəhd etməməlidir.



> "Rəsmi Parisin prosesə qayıtmasına Bakı imkan verməz"

**Fransanın Praqa bəyanatının imzalanması ilə bağlı heç bir müsbət addımı olmadığını deyən analitik Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, onlar Praqa görüşünün nəticələrini özləri üçün faktiki məğlubiyyət hesab edə bilərlər:** "Belə iddia olunur ki, görüşün təşkilini Fransa təklif edib. Geridə qalan bütün proseslərdə isə yalnız neqativ rol oynayıb. Məlumatlar var ki, Fransa Prezidenti Emmanuel Makron ermənilərin bütün tələblərini ümumiləşdirərək, Praqa görüşündə Azərbaycana qarşı irəli sürməyə çalışıb.

Amma o, çox böyük müqavimətlə üzləşib. Ermənistanın Paris üzərindən irəli sürdüyü bütün təkliflər isə Prezident İlham Əliyev tərəfindən bloklanıb. Nəticədə də Ermənistan və Fransanın məmnun olmadığı bir variantda Praqa bəyannaməsi ortaya çıxdı.

Onlar artıq bu görüşün nəticələrini məğlubiyyət hesab edirlər. Son hadisələr rəsmi Parisin sülh prosesindəki mənfi, yaxud müsbət rol oynadığını açıq şəkildə göstərmiş oldu. Yeni vasitəçilik etmək istəyən bir ölkənin prezidenti açıq-aşkar biz Ermənistanın yanındayıq deyir. Bununla da o, neytrallığı pozmuş oldu.

Bundan sonra isə İlham Əliyev bildirdi ki, Fransa artıq Ermənistan və Azərbaycan arasındakı sülh prosesində iştirak etməyəcək. İndi isə onlar vəziyyəti düzəltmək üçün səfirlər səviyyəsində müxtəlif açıqlamalar verərək bizim könlümüzü almağa çalışırlar. Lakin bunlar boş cəhdlərdir.

Azərbaycan xalqı və cəmiyyəti Fransanın mövqeyini on illərdir ki, bilir. Parisin yenidən prosesə qayıtmasına rəsmi Bakı imkan verməz. Sülh prosesində iştirakı isə Makronun günahı ucbatından bloklandı".

**Nihat Müzəffər**

# Xankəndi məsələsində həlledici məqam yetişib

## "Bakı təbii ki, Araik və dəstəsi ilə təmas qurmayacaq, lakin bu kartı sıradan çıxarmaq istiqamətində də addım atılmalıdır"



**Qarabağdakı qondarma rejimin "rəhbəri" Araik Arutyunyan İrəvanda Baş nazir Nikol Paşinyanla görüşdən sonra bəzi açıqlamalar verib. O, "Bakı ilə danışıqlara hazır olduqlarını" bildirib. Arutyunyan "Qarabağın gələcəyini Rusiyanın iştirakı olmadan təsəvvür etmədiyini" söyləyib. Ermənistanın "Qarabağın təhlükəsizliyinin təminatçısı" olmadığına işarə edib.**

*Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Bakı-İrəvan danışıqlarının gündəliyi fonunda Araikin sözlərindən bəlli olur ki, Paşinyan ona "Ermənistanın əlindən heç nə gəlmədiyini" deyib. Ekspert vurğulayıb ki, İrəvan Qarabağ məsələsindən imtina edir:* "Mümkündür ki, Paşinyan Araikə onları yalnız rusların "xilas etmək" imkanının olduğunu izah edib. Yaxud İrəvandan imtina cavabını alan separatçı-terrorçu rejim Moskvadan başqa gedəcəkləri qapı qalmadığını anlayır. Hər iki halda problem rusların masasına ötürülür. Proseslərin inkişafına baxdıqda da Ermənistanın planının bu olduğu aydın görünürdü. Məqsəd poblemin Bakı-Moskva xəttində transformasiyasını başa çatdırmaq, nəticənin necə olmasından məsuliyyəti rusların üzərinə qoymaqdır. Paşinyanla görüşdən sonra Araikin başının dəstəsi ilə Moskvaya səfər planlaşdırdığına dair məlumatlar da bu kontekstdə diqqət çəkir. Separatçılar suallarına cavab tapmaq və rusların təminatını almaq istəyir. Praktiki baxımdan nə qədər çətin görünsə də, ruslardan "müstəqilliklərini" tanımağı, yaxud Rusiyaya birləşməyə imkan yaratmalarını da istəyə bilərlər".

**A.Nərimanlı qeyd edib ki, bu oyunun İrəvan mətbəxində hazırlandığı da aydın görünür:** "Ermənistan separatçıları Rusiyanın qucağına atmaqla yanaşı, qondarma "Bakı-Xankəndi" formatını da ön plana çıxarır. Bununla rəsmi Bakının beynəlxalq birlik qarşısında açıqladığı "Qarabağdakı yaşayan ermənilərlə qeyri-formal danışıqların aparılması" işində separatçı-terrorçuları "tərəfə" çevirməyə çalışırlar. "Bakı ilə danışıqlara hazır olduqlarını" bildirən Araikin bunu qondarma "müstəqillikləri və öz müqəddəratını təyin etmə hüquqlarını" şübhə altına qoymadan etmək istədiklərini deməsi də buna hesablanıb. Azərbaycan "qeyri-formal təmaslara" hazır olduğunu deyir. Ermənistan isə beynəlxalq birliyin bu "təmaslarda" separatçıların iştirakını qəbul etməsinə çalışır. Araikin açıqlaması fonunda "Qarabağdakı ermənilər Bakı ilə danışıqlara hazırdır, Azərbaycan onlarla təmas qurmalıdır" fikrini inkişaf etdirməyi planlaşdırırlar. Bakı bunu qəbul etməsə, "Azərbaycan ermənilərin hüquqlarını və təhlükəsizliyini təmin etmir" iddiası üzərindən hərəkət edəcəklər. Proseslər deməyə əsas verir ki, Xankəndi məsələsində həlledici məqam yetişib. Bakı təbii ki, Araik və dəstəsi ilə təmas qurmayacaq, lakin bu kartı sıradan çıxarmaq istiqamətində də addım atılmalıdır, xüsusilə ruslarla təmasların intensivləşməsinə qədər".

**İsmayıl Qocayev**

# Yalnız prezidentlərin imzası qalıb

## Türkmənistan və Qazaxıstan dəniz sərhədlərini özləri müəyyənləşdirdilər



**Qazaxıstan parlamenti Türkmənistanla Xəzər dənizində sərhəd xətlərinin müəyyən edilməsi haqqında sazişi təsdiqləyib.**

Qazaxıstanlı senator Nurcan Nursipatov mövzu ilə bağlı açıqlamasında Qazaxıstan və Türkmənistan arasında ortaq sərhədlərin müəyyənləşdirilməsində yeni mərhələyə keçildiyini bildirib.

O qeyd edib ki, Xəzər dənizinin iqtisadi, sosial və mədəni əhəmiyyətini nəzərə alaraq, sazişin ratifikasiyası iki ölkənin dövlət sərhədi məsələlərinə qarşılıqlı hörmət əsasında qurulub, etimad və bərabərlik ruhunda həlli ilə nəticələnəcək.

Qeyd edək ki, Sərhəd razılaşması Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin imzasından sonra qüvvəyə minəcək.

**Xəzər konvensiyasının 2018-ci ildə qəbul olunduğunu deyən politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında vurğulayıb ki, Xəzər dənizinin hüdudları bu konvensiyaya əsasən bölünüb:** "Burada həm iqtisadi zonaların sərhədləri müəyyən olunub, həm də hər ölkəyə məxsus olan akvatoriya dəqiqləşdirilib. Dənizin hüdudunun bölünməsini Xəzəryanı ölkələr özləri müəyyən etməlidirlər. Bu isə ortaq xətt üzərində aparılmalıdır. Türkmənistan və Qazaxıstan da dəniz sərhədlərini özləri müəyyənləşdirdilər. Bu da onu göstərir ki, Xəzərin şimal hissəsində bölgü artıq tamamlanıb. Cənub hissədə isə hələlik müəyyən problemlər var. Sözügedən problemlər isə yalnız ikitərəfli qaydada həll oluna bilər. Digər ölkələrin buna qarışması zəruri deyil".

**Nihat Müzəffər**

# "Azərbaycan tərəfində olan erməni qüvvələri geri çəkilməlidir"

## Toivo Klaar: "Ümid edirik ki, sərhəd komissiyalarının Brüsseldə keçiriləcək növbəti iclası müəyyən konkret nəticələr əldə etməyə kömək edəcək"

**Biz Ermənistanla Azərbaycanın Avropa İttifaqının (Aİ) müşahidəçiləri ilə əməkdaşlıq edib vəziyyətin sabitləşməsinə töhfə verəcəklərini və bununla da sülh danışıqları üçün əlverişli mühitin yaradılmasına, eyni zamanda, sərhəd komissiyalarının məqsədyönlü işinə imkan yaradacaqlarını gözləyirik.**

APA xəbər verir ki, bunu Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar "news.am"a müsahibəsində deyib.

O bildirib ki, Aİ-nin mülki missiyasının regionda təhlükəsizlik və son vəziyyətlə bağlı hesabat verməli mandatı var: "Gözləntimiz budur ki, Aİ müşahidəçilərinin mövcudluğu hər hansı mümkün gərginliyin qarşısını almağa kömək edəcək".

Klaar qeyd edib ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Azərbaycan hissəsində fiziki iştirak olmadan belə, Azərbaycan tərəfi Aİ-nin Monitorinq Missiyası ilə müvafiq kanallar vasitəsilə əməkdaşlıq edəcəyini bildirib.

Xüsusi nümayəndə vurğulayıb ki, Ermənistan XİN başçısı 22 sentyabrda Aİ-nin Ali Nümayəndəsinə ünvanladığı məktubda missiyanın Ermənistan ərazisində yerləşdirilməsini xahiş edib.

Praqa görüşünə toxunan Klaarın sözlərinə görə, burada əldə olunan vacib nəticələrdən digəri isə hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü beynəlxalq sənədlər əsasında tanımasıdır.



Klarr diqqətə çatdırıb ki, sərhəd demarkasiya edilməsə də, mövcuddur: "Həmçinin ikitərəfli sərhədin Azərbaycan tərəfində olan erməni qüvvələri də geri çəkilməlidir. Gərginliyin bu yolla azaldılması, şübhəsiz ki, delimitasiya komissiyalarının işinə müsbət töhfə verəcək. Fikrimcə, hər iki məqam vacibdir: mövcud sərhədə hörmət və delimitasiya danışıqlarında tam iştirak. Ümid edirik ki, sərhəd komissiyalarının Brüsseldə keçiriləcək növbəti iclası müəyyən konkret nəticələr əldə etməyə kömək edəcək".

Aİ rəsmisi Qarabağdakı erməni əhalisinin gələcəyi barədə sualı da cavablandırıb. Xüsusi nümayəndə Azərbaycanda və Ermənistandakı tərəfdaşlarla bu mövzuda mütəmadi olaraq fikir mübadiləsinin aparıldığını əlavə edib.

Toivo Klaar diqqətə çatdırıb ki, Aİ Qarabağın erməni əhalisinin hüquqlarına və təhlükəsizliyinə təminatların gələcək sülhün olduğu Cənubi Qafqazın əsas elementi olacağını həmişə açıq şəkildə bəyan edib: "Mən hər şeydən əvvəl hesab edirəm ki, Bakının hərtərəfli strategiya işləyib hazırlaması və Qarabağdakı erməni əhalisi ilə konstruktiv və şəffaf dialoq prosesində iştirak etməsi vacibdir. Qarabağ ermənilərinin hüquqlarını və təhlükəsizliyini təmin edəcək həll variantı buradakı əhalinin, Ermənistanın, Azərbaycanın, beynəlxalq ictimaiyyətin də marağındadır".

Aİ rəsmisi Azərbaycan və Ermənistanın bu ilin sonunadək sülh müqaviləsi imzalaması ilə bağlı fikirlərə də münasibət bildirib. Toivo Klaar deyib ki, bu məqsədə çatmaq tərəflərdən asılı olacaq: "Aydın olan odur ki, Aİ bu prosesi dəstəkləyir və əminik ki, razılaşma hərtərəfli həll üçün həlledici element olacaq".

Sosial şəbəkələrdə yayılan görüntülərlə bağlı sualı cavablandıran xüsusi nümayəndə vurğulayıb ki, keçmiş cinayətlər heç bir halda zorakılığın təkrarlanmasına haqq qazandıra bilməz: "Buna birdəfəlik son qoyulmalı və bu cinayətləri törədənlər ədalət qarşısında cavab verməlidirlər. Həmçinin, kimin törətməsindən asılı olmayaraq, əvvəllər törədilmiş cinayətlərin etirafı və araşdırılması lazımdır. Azərbaycan tərəfi zorakılıqla bağlı son xəbərləri araşdırmaq üçün ilkin addımlar atıb və biz bu prosesləri yaxından izləyəcəyik. Eyni zamanda, hər iki tərəfə keçmiş və son zorakılıqlara ədalətli münasibətin təmin edilməsi, bu cür təsvirolunmaz hərəkətlərin təkrarlanmaması üçün əllərindən gələni etməyə dair çağırışımızı təkrar etmək istərdim. Düşmənçilik və nifrət səhifəsi gələcək nəsillər üçün birdəfəlik qapanmalıdır".



# İtaliya prezidenti Corca Meloniyə hökuməti qurmağı tapşırıb

**İtaliya prezidenti Sercio Mattarella sağçı "İtaliya qardaşları" partiyasının lideri Corca Meloniyə hökuməti qurmağı tapşırıb.**

Trend-in məlumatına görə, bu barədə ölkə prezidenti administrasiyasının baş katibi Uqo Dzampetti deyib.

Onun sözlərinə görə, C.Meloni nazir vəzifələrinə namizədlərin siyahısını dərhal prezidentə təhvil verib.

Yeni nazirlərin andiçmə mərasimi oktyabrın 21-i şənbə günü səhərə planlaşdırılıb.

C.Meloni siyahısına baş nazirin iki müavini daxildir: bunlar "Liqa" partiyasının rəhbəri Matteo Salvini (İnfrastruktur naziri) və "İrəli, İtaliya" partiyasının tanınmış nümayəndəsi Antonio Tayani (xarici işlər naziri) olacaq.

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet

22 oktyabr 2022-ci il (şənbə)

Zaman





# Deputat İrana “od püskürdü”

## “Yer qəhətdir ki, gəlib Araz sahilində təlimlər keçirirsiniz”

**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 50 məsələ olub. Gündəlikdən əvvəl cari məsələlərlə bağlı çıxışlar olub. Parlament sədri Sahibə Qafarova deyib ki, Türkiyə Qarabağın bərpası prosesində də Azərbaycanın yanındadır:**

”Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan Beynəlxalq Hava Limanını açmalarını bütün xalqımızla böyük qürur hissi ilə izlədik. Türkiyə bu gün də Azərbaycanın yanındadır. 44 günlük savaşda necə siyasi, mənəvi dəstək göstərmişdisə, bərpa prosesində də Azərbaycanın yanındadır. Xalqlarımızın dostluğu və qardaşlığı bizim güc mənbəyimizdir. Zəngilanda verilən mesajlardan biri də o idi ki, biz öz torpaqlarımıza qayıtmışıq. Zəngilanda həyata keçirilən quruculuq işləri də məhz bu məqsədə yönəlmişdi. Bu gün azad edilən ərazilərdə geniş vüsət alan bərpa işləri Böyük Qayıdışın daha da yaxın ayaq səsləridir. Məcburi köçkünlərimizin yurd həsrətinə son qoyulacağı tarix elə də uzaqda deyil”.

**“Ərdoğan Zəngəzur dəhlizi ilə bağlı Türkiyənin iradəsini bir daha bəyan etdi”**

**Deputat Fəzail Ağamalı deyib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkə başçısı İlham Əliyevlə Zəngilanda hava limanının açılışında iştirakı əhəmiyyətli hadisə idi.** F.Ağamalı bildirib ki, tədbir zamanı Türkiyə dövlət başçısı olduqca ciddi mahiyyət kəsb edən açıqlamalar verdi. ATƏT-in, AŞ-nin mahiyyəti üzərində dayandı və 30 ildə viran qalan torpağa onların gəlməməsini qınadı. Xüsusi olaraq Azərbaycanla bir yerdə olduğunu vurğuladı: ”Bu onu göstərdi ki, Türkiyə Prezidenti Ərdoğan və Türkiyə xalqı hər zaman Azərbaycanla birlikdədir. Onun Zəngəzurla bağlı mesajları da əslində bu layihənin əleyhinə olanların qarşısında Türkiyə dövlətinin iradəsinin də olduğunu bir daha bəyan etdi. Bu səfər bir daha göstərdi ki, qardaş Türkiyə xalqı Azərbaycanla birlikdə olacaq. Hər iki dövlətin birgə fəaliyyəti regiona, türk dünyasına özünün son dərəcə əhəmiyyətli töhfələrini verəcək. Bu, bir daha onu göstərdi ki, 44 günlük müharibədə olduğu kimi Türkiyə bundan sonra da Azərbaycanın yanında olacaq. Bundan başqa, Ərdoğanın bu tədbirdə iştirakının görüntüsü həm Fransa, həm də İran üçün soyuq duş effekti yaratdı”.

**“Get təlimləri Kiş adasında keçir”**

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, bizi əhatə edən bəzi ölkələr Azərbaycanda baş verən müsbət dəyişikliklərdə başqa faktorlar axtarırlar:** ”İrana yer qəhətdir ki, gəlib 5 metrlik Araz sahilində təlimlər keçirir. O boyda ərazisi var. Get Kiş adasında keçir, Hind okeanının sahillərində keçir! Arazın kənarında belə təlimlərin keçirilməsinə nə ehtiyac var?! Orada nümayiş olunan texnikaya, keçidlərə, Araz çayı üzərində körpülərə nə ehtiyac var?! Araz çayını velosipedlə də keçmək olar. Orada körpü salıb tank keçirməyin nümayiş etdirilməsinin heç bir mənası yoxdur. Bu artistliyin heç bir yeri yoxdur! Bununla da heç kimə hədə-qorxu gəlmək mümkün deyil. Adlarını İslam ordusu, Mehdi ordusu qoyublarsa, Azərbaycan torpaqlarında işğal zamanı qəbirlər, məscidlər təhqir olunanda bu İslam ordusu niyə hərəkət keçmirdi? Əgər Mehdinin adından istifadə edirsə, o zaman Mehdi gələrsə, gərək birinci İrandan başlasın. Biz həm islama sadiqik, həm dünyanın ən yaxşı dini forması Azərbaycandadır və biz bu yola davam edirik”.

> “Araz çayını velosipedlə də keçmək olar. Orada körpü salıb tank keçirməyin nümayiş etdirilməsinin heç bir mənası yoxdur”

**“Türk dövlətləri Qurban və Ramazan bayramlarını eyni gündə keçirsin”**

**S.Novruzov əlavə edib ki, Azərbaycan tolerant ölkədir. Ölkəmizdə qeydiyyatdan keçən bütün dinlərin qurumları azad şəkildə fəaliyyət göstərə bilir:** ”Azərbaycanda dinlərarası, mədəniyyətlərarası çoxlu sayda konfranslar keçirilir. Həmçinin Azərbaycandan kənarda da Heydər Əliyev Fondu tərəfindən bu konfranslar keçirilir. Bir neçə gündür Azərbaycan türk ölkələrinin din xadimlərinin konfransı keçirilir. Özbəkistan din xadimi tərəfindən verilən təklif çox mütərəqqidir. Xüsusi dini günlərin türk ölkələrində eyni günə salınması təklifini mən də dəstəkləyirəm. Qurban bayramı, Ramazan bayramı və s. kimi xüsusi dini günlər türkdilli ölkələrin hamısında eyni gündə keçirilsə, yaxşı olar. Türk xalqları bütün sahələrdə olduğu kimi dini sahədə də bu addımları həyata keçirməlidir”.

**“Tıxac probleminin həlli üçün dənizdən istifadə etmək lazımdır”**

**Deputat Elşən Musayev tıxaclarla bağlı problemi gündəmə gətirib. Deyib ki, tıxaclarla bağlı problemi həll etmək üçün dənizdən istifadə etmək lazımdır:** ”Qardaş Türkiyədə bu təcrübədən artıq istifadə olunub. Sadəcə, dəniz üzərində bir neçə dayanacaq qurulmalıdır. Bu olsa, Bakı ilə Sumqayıt arasında, o cümlədən Günəşlidən gələrkən tıxaclar aradan qaldırılar. Eyni zamanda velosiped yollarının çəkilməsi ilə bağlı iş gücləndirilməlidir”.

**“Vətəndaşlar yaşadığı ünvan üzrə elektron qeydiyyata düşsün”**

**Deputat Aydın Hüseynov deyib ki, vətəndaşların çoxu yaşadığı ünvan üzrə qeydiyyatda deyil. Onun sözlərinə görə, bu da insanların səhiyyə və digər xidmətlərdən istifadəsi üçün çətinlik yaradır:** ”Buna görə də mən təklif edirəm ki, vətəndaşların qeydiyyata düşmə prosesi sadələşdirilsin. Elektron şəkildə vətəndaşların yaşadığı yer üzrə qeydiyyata salınması təmin edilsin. Bu, bu gün çox aktual problemdir və həll edilməlidir”.

**“İnsanların böyük əksəriyyəti yollarda qalır”**

**Parlamentdə ictimai nəqliyyatdan istifadəni stimullaşdırmaq üçün güzəştli kartların tətbiqi təklif olunub. Deputat Emin Hacıyev deyib ki, günün istənilən vaxtında Bakı-Sumqayıt yolunda tıxac müşahidə olunur:** ”İnsanların böyük əksəriyyəti yollarda qalır. Problemi təhlil etsək görərik ki, məsələ yalnız yol infrastrukturunun mövcud nəqliyyat yükünü götürə bilməməsindən qaynaqlanmır”. O bildirib ki, bu problemi aradan qaldırmaq üçün bir sıra tədbirlər görmək lazımdır: ”Abşeronda sərnişindaşımaya vahid prinsiplə yanaşmaq lazımdır. Sumqayıt-Bakı arasında ictimai nəqliyyatın avtovağzallar arasında işləməsi ləğv olunmalıdır. Vətəndaşların avtovağzala gəlməsi əlavə vaxt və vəsait itkisidir. İctimai nəqliyyatın mövcud vəziyyəti şəxsi nəqliyyat vasitələrindən istifadəni stimullaşdırır. Hesab edirəm ki, Sumqayıtdan Bakının müxtəlif ərazilərinə, məsələn, Bakı Dövlət Universitetinə, Bakı Dəmir Yolu Vağzalına və s. ərazilərə avtobuslar təşkil olunsun. Bundan başqa, ictimai nəqliyyatdan istifadəni stimullaşdırmaq üçün güzəştli kartlar tətbiq oluna bilər. Həmçinin Bakı-Sumqayıt qatarlarının vaqonlarının sayının artırılması və intervalların azaldılması həmin yolda sıxlığı azaldar. Ölkəmizdə ekspress avtobusların tətbiq olunmasını təklif edirəm. Bu, şəxsi nəqliyyatdan istifadənin azaldılmasına kömək edər”.

**“ATƏT-in Ermənistana missiya göndərməsinin heç bir əsası yoxdur”**

**Millət vəkili Azay Quliyev deyib ki, ATƏT-in qeyri-qanuni olaraq Ermənistana qiymətləndirmə missiyası göndərməsinin heç bir əsası yoxdur.** Çünki bu məsələ nə müzakirə olunub, nə də bununla bağlı kollektiv qərar olub. Onun sözlərinə görə, bu addım bəzi qüvvələrin şəxsi mənafeyinə xidmət edən haldan başqa bir şey deyil: ”Bu addımın heç bir siyasi təsiri olmayacaq. ATƏT-in Minsk qrupunun bu addımı heç bir halda təşkilatın təməl prinsiplərinə uyğun deyil. Bu çox ölkələr də bu missiyanın əhəmiyyətinin olmadığını qeyd edəcəklər”.

**“Heydər Əliyev Fondunun həyata qaytardığı, kömək etdiyi insanlar var”**

**Millət vəkili Razi Nurullayev hər gün həssas qrupların nümayəndələri ilə görüşdüyünü deyib:** ”Demək olar ki, əksər insanlar Heydər Əliyev Fonduna müraciət etmək istəyir, hörmətli Mehriban xanım Əliyevaya ümidini bağlayır. Səbəb budur ki, insanlar müraciət edir, cavab alır və əksər hallarda köməklik edilir. Edilən müraciətlər də ölkədə müalicəsi mümkün olmayan xəstəliklərlə və sosial məsələlərlə bağlıdır. Müraciət edənlər də konkret ünvan söyləyir ki, tanıdıqları şəxslər içərisində Heydər Əliyev Fondunun həyata qaytardığı, kömək etdiyi insanlar var. Bu o deməkdir ki, Fond Azərbaycanın bütün yerlərində səmərəli fəaliyyət göstərir və insanlarımız üçün əlçatandır. Məhz Heydər Əliyev Fondu on minlərlə insana ikinci həyat bəxş edib. Minlərlə insanı başının üstündə damla təmin edib. Xarici ölkələrdə göstərdiyi xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycana minlərlə dost qazandırıb. Məhz onlar bu gün bizim ehtiyacımız olduğu zamanda ölkəmizi müdafiə edirlər. Mən bu məsələləri ona görə dedim ki, belə çıxmasın ki, Heydər Əliyev Fondunun, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gördüyü gözəl işləri müxalifət görmür və təqdir etmir. Hörmətli Mehriban xanım Əliyevaya ürəkdən təşəkkür edir, bütün işlərində nailiyyətlər arzulayıram.

**İsmayıl Qocayev**



### Türkiyədən Yunanıstana keçməyə çalışan 5 terrorçu saxlanılıb

**Türkiyədən Yunanıstana keçməyə çalışan 5 terrorçu saxlanılıb.**

”Report” xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Həbs edilən şəxslərin FETÖ terror təşkilatının üzvü olduğu müəyyən edilib.

### Bütün Bakı tıxacın içərisindədir

DYP: Bunun üçün yollar genişləndirilməlidir



**”Elə vaxt olub ki, biz 20 Yanvar dairəsinə bir tağım cəlb edirik ki, tıxaclar aradan qalxsın. Nəqliyyat vasitələrini yönləndirməklə tıxacın az faizinin qarşısını alırıq. Çünki, avtobuslar və taksilər tıxacın yaranmasının əsas səbəbidir”.**

APA xəbər verir ki, bunu Bakı şəhər Dövlət Yol Polis İdarəsinin rəis müavini, polis polkovniki Malik İbrahimov deyib.

Onun sözlərinə görə, piyada keçidlərinə gəldikdə isə, Tbilisi prospektində bəzən 10 piyadanın keçməsi üçün 100 maşın gözləyir: ”Ekologiya nəzərdən biz buna baxsaq, bəzi yerlərdə 4-5 ağacın yolun genişləndirilməsi üçün yerdəyişməsi məqbuldur. Fəaliyyətlərimiz üzrə öz çərçivəmizdə işləyirik. Bütün Bakı tıxacın içərisindədir. Hər kəs gözləyir ki, yol polisi tıxacı açsın, amma bu təkcə həll deyil. Bunun üçün yollar genişləndirilməlidir”.

### XİN başçısı: "Ermənistan Təbrizdə Baş konsulluğu açacaq"

**Ermənistan xarici işlər naziri Ararat Mirzoyan İranın Təbriz şəhərində Baş konsulluq açmaq niyyətində olduqlarını təsdiqləyib.**

”Report” ”Aysor”a istinadən xəbər verir ki, Ararat Mirzoyan bu barədə Qafanda İran Baş konsulluğunun açılış mərasimində bildirib.

O, Şərqi Azərbaycan əyalətinin mərkəzi Təbriz şəhərində Ermənistanın Baş konsulluq açmaq niyyətində olduqlarını deyib.

*Qeyd edək ki, oktyabrın 21-də Qafan şəhərində İranın Baş konsulluğunu açılışı olub. Açılış mərasimində iştirak edən İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian çıxışında bildirib ki, İslam Respublikası Ermənistanın və regionun təhlükəsizliyini öz təhlükəsizliyi hesab edir.*

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
22 oktyabr 2022-ci il (şənbə)
www.sherg.az





# Batan gəmi

## İran hakimiyyəti gücsüzlüyünü nümayiş etdirir

**İranın Qafandakı baş konsulluğunun açılış mərasiminə qatılan Xarici işlər naziri Hüseyn Əmir-Abdullahian İrəvanda erməni həmkarı Ararat Mirzoyanla da görüşüb. İran XİN rəhbəri Qafqaz regionunda hər hansı geosiyasi sərhəd dəyişikliyinə qarşı olduqlarını açıq şəkildə növbəti dəfə dilə gətirib. Nazir İranın Qafandakı baş konsulluğunun yenidən açılmasından məmnun olduğunu söyləyib:**

"Bu inkişaf İran və Ermənistan ölkəsi arasında tarixi əlaqələrin dərinləşməsinin başqa bir səbəbidir. Biz Ermənistanın təhlükəsizliyini İran İslam Respublikasının təhlükəsizliyi və regionun təhlükəsizliyi hesab edirik". Lakin Abdullahian onu da əlavə edib ki, İran regionda, o cümlədən Ermənistanda xarici qüvvələrin mövcudluğunun əleyhinədir. XİN rəhbəri vurğulayıb ki, onun Ermənistana səfərinin əsas məqsədlərindən biri Fars körfəzi-Qara dəniz dəhlizidir. O bildirib ki, bu yol ilə bağlı məqsədləri reallaşdırmaq və dəhlizin tikintisində daha mühüm rol oynamaq üçün Ermənistan-İran-Hindistan üçtərəfli platformasının formalaşdırılması vacibdir.

Politoloq Sədrəddin Soltan deyib ki, Qvardiyaya məxsus informasiya mənbələrinin bildirdiyinə görə, Abdullahian-Mirzoyan görüşü zamanı İrəvan rəsmiləri İrandan hərbi texnika və avadanlıq almaq məqsədilə Tehrana müraciət ediblər. Ekspert ehtimal edir ki, konsulluğun açılması, hərbi manevr əvvəlcədən planlaşdırılmış bir tədbir olsa da, daha çox Cənubi Qafqazda özünü göstərmək məqsədi daşıyır: "İran sərhəddə hərbi təlim keçirməklə güc göstərirsə, konsulluqla regionda diplomatik missiyadan çox, müşahidə missiyasını icra edəcəyi istisna olunmur. Azərbaycanla Ermənistan arasındakı sərhədyanı bölgəyə Avropa İttifaqının mülki müşahidə missiyası yerləşdirilib. İran Meğrı rayonunda bir sıra ticarət obyektləri istifadəyə verməyi planlaşdırır. Bu baxımdan, İran Qafandakı konsulluq vasitəsilə Azərbaycan-Ermənistan sərhədyanı ərazilərini, ola bilsin, İsrailin Azərbaycanın bu bölgəyə yaxın ərazidəki fəaliyyətini müşahidə edəcəyi də gözlənilir. İranın təlim keçirməsi, Ermənistanla hərbi texnikaya dair müəyyən razılaşmalar, eyni zamanda Qafanda baş konsulluq açması Cənubi Qafqaza hərbi-diplomatik mövcudluğunu artırmaq cəhdlərindən sayıla bilər. Qvardiyanın quru qoşunlarının komandanı, general Məhəmməd Pakpur təlimlərin sonuncu günü yenə Azərbaycanın ünvanına "xəbərdaredici" fikirlər səsləndirib. Onun çıxışından aydın olur ki, manevrlər hərbi hazırlığı yoxlamaq üçün deyil, ABŞ və İsraillə yanaşı, Azərbaycanı təhdid etmək mahiyyəti daşıyır. Pakpur bildirib ki, körfəz regionu ölkənin enerji təchizatına görə xüsusi əhəmiyyət kəsb edir. O səbəbdən hər il orada öz nüfuzlarını dünyaya nümayiş etdirmək üçün bir çox təlimlər keçirirlər: "Düşmənimiz sionist rejim (İsraili nəzərdə tutur - red.) müxtəlif şirkətlər şəklində şimal sərhədlərindəki bəzi qonşu ölkələrimizdə baza qurur. Biz qəti şəkildə bu cinayətkar rejimin sərhədlərimizdə bazasının olmasına icazə verməyəcəyik". O əlavə edib ki, İslam Respublikası özünə harada təhlükə hiss edirsə, həmin bölgəyə böyük bir hərbi qüvvə, ordu göndərir, onları orada yerləşdirir, bununla da İran ordusunun gücünü nümayiş etdirir".

> "Tehran ölkə daxilində baş verən etirazların əsl səbəbini araşdırmaq istəmədiyindən günahı qonşularda görür"

S.Soltan vurğulayıb ki, rəsmi Tehran ölkə daxilində baş verən etirazların əsl səbəbini araşdırmaq istəmədiyindən günahı qonşularda, okeanın o tayında yerləşən ABŞ-da görür: "Bu, İrandakı iqtidarın gücsüzlüyünün göstəricisidir. Cəmiyyətinin istəklərini qarşılaya bilməyən, yaxud qarşılamaq istəməyən İran rəhbərliyinin hərbi təlimlərlə yaxına və uzağa xəbərdarlıq etməsi zəiflikdir. Tehran hakimiyyəti etirazları yatırmaq üçün çıxış yolunu kütləvi həbslər keçirmək, təqiblər etmək, aksiya iştirakçılarına qarşı odlu silahdan istifadə edib qətlə yetirməkdə görür. Qonşularla münasibətləri normallaşdırmaq üçün isə əvvəlcə hədələyici bəyanatlar verir, təlimlər keçirir, müxtəlif məzmunlu problemlər yaradır. Sonra geri addım atıb guya "xoşməramlı" olduğunu nümayiş etdirmək üçün sözə güc verir. İran 30 ildir Azərbaycanla münasibətlərini məhz bu cür davam etdirir. Lakin rəsmi Ankara və Bakı regionda həyata keçirdikləri birgə layihələr, quruculuq işləri ilə həm İrana, həm də regiondakı iğtişaşlarda maraqlı olanlara birliyin, əməkdaşlığın davam etdiyini, sülhün və təhlükəsizliyin ismarışını verdi".

**İsmayıl Qocayev**



# İran çox etibarsız qonşudur

## Bu ölkədən istənilən davranışı gözləmək olar

**"Üzdə özünü bizə "dost" kimi göstərməyə çalışan, əsl həqiqətdə isə təcavüzkar və terrorçu Ermənistanı açıq-aşkar dəstəkləyən İranın silahlı qüvvələrinin Araz çayını keçib Qarabağa girməsi praktiki cəhətdən də mümkündür".**

*Bu sözləri "Şərq"ə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, İran kimi etibarsız bir qonşudan hər cürə davranışı gözləmək olar:*

"Hazırda İran ordusunun Azərbaycana zərbələr endirmək və Qarabağa qoşun yeritmək şəklində senarilərə hazırlaşdığı, hücum üçün məşq etdiyi barədə yayılan xəbərlərə ciddi yanaşmalıyıq. Hərbi təlimdə SEPAH-ın baş komandanı general Hüseyn Salaminin şəxsən iştirak etməsi və onun öz çıxışında ad çəkmədən Azərbaycanı hədələməsi diqqətdən qaçmamalıdır. Maraqlıdır ki, sərhədlərimiz boyunca davam edən İran ordusunun təlimində döyüş hazırlıqları test olunur. Fransa kimi, İran kimi dost olmayan ölkələrin bizə qarşı istənilən planlarına və hərəkətlərinə hər an hazır olmalıyıq. İran rəhbərliyinin Ermənistanın indiyə qədər bizə qarşı yürütdüyü işğalçı siyasətini real şəkildə dəstəkləməsi barədə kifayət qədər faktlar var. Ancaq Tehran hökuməti həmin faktları bir qayda olaraq həmişə inkar edib. İranın Azərbaycandakı səfirliyi iddia edir ki, Azərbaycanla sərhəd bölgəsində baş tutan manevr və təlimlər, guya, İran ordusunun illik fəaliyyət təqviminə uyğun həyata keçirilən ənənəvi təlimlərdir. Hərçənd, buna inanmaq nə qədər çətin olsa da, biz yenə də inanmaq istərdik ki, sözügedən təlimlər düşmənçilik niyyətilə keçirilmir. Azərbaycan İranla sərhədlərimizə hər zaman dostluq və sülh sərhədləri kimi baxıb. Odur ki, qarşı tərəfdən də eyni yanaşmanı gözləməyə haqqımız çatır".

**İsmayıl**



# "Sülh müqaviləsini imzalamasa, Ermənistan özü boyda koridora çevriləcək"

## Zahid Oruc: "İrəvana ən yaxşı təhlükəsizlik təminatını Azərbaycan və Türkiyə verə bilər"

**"Azərbaycana qarşı diplomatik-siyasi təzyiq həlledici mərhələyə daxil olub". Bu barədə Milli Məclisin dünənki iclasında deputat Zahid Oruc deyib.**

Parlament üzvü vurğulayıb ki, Avroparlament və AŞ PA-nın "Ermənistan ərazilərinin ələ keçirilməsindən" danışması, qlobal medianın apardığı kampaniya, Avropa Birliyindən Ermənistana 40 nəfərlik hərbi taborun gəlməsi, ATƏT-in kəşfiyyat missiyasının İrəvanda mənzillənməsi regionda silahlı toqquşmalara zəmin hazırlayır: "Qərbin məqsədi Rusiyaya qarşı ikinci cəbhə açmaqdır, Ağdamda yerləşən Rusiya-Türkiyə hərbi mərkəzini bölgədən çıxarıb NATO qüvvələrini sərhəddə yerləşdirməkdir. Lakin Ali Baş Komandan İlham Əliyev Şuşa bəyannaməsini Ermənistana deyil, ölkəmizə və Türkiyəyə təhlükə törədən dövlətlərə qarşı imzalayıb. Qərbin hazırkı mülki kontingenti İranın yanlış siyasətinə görə regiona gəldi. Son 30 ildə o bölgələrdə bir dəfə də olsun hərbi təlim keçirməyən bir dövlət Ermənistanın ərazi bütövlüyünü qoruyanda bilməliydi ki, bir gün qarşısında NATO emissarlarını görəcək. Erməni mətbuatı hərbi təlimlərdə İran inqilab keşikçilərinin Bakını ələ keçirməyi simulyasiya etdiklərini yazır. Halbuki, baş örtüyü tələbinə qarşı ayağa qalxan milyonlarla insanın etirazını söndürməmiş Araz çayını keçməyi məşq etməyin hədəfi biz ola bilmərik. İran ordusu "Zəngəzur dəhlizi"nin deyil, "Araz koridoru"nun açılması təhlükəsini qabaqlamaq üçün İrəvanı tutmağa çalışır. Bizim İranla dövlətlərarası sərhədlər müəyyənləşib, lakin kimsə Ermənistan kimi İranla da yeni sərhəd istəyirsə, tarixi geriyə çevirər. Qoşunlarını sərhəddə yığıb oranı cəbhə xəttinə çevirmək Ermənistanı Qafqazın Ukraynasına, Yaxın Şərqin Suriyasına döndərər".

**Deputat bəyan edib ki, hadisələr düz yüz il əvvəlki senari üzrə gedir:** "Tarix təkrarlanır. Bir əsr qabaq da Osmanlıdan üz döndərən erməni liderləri əvvəlcə rus çarına sığındılar. Sonra 1-ci Dünya müharibəsində məğlub olan Rusiya imperiyasının xeyirxahlığını və yardımını unudub Vudro Vilsondan himayə, arbitraj qərarı və ordu istədilər. O vaxt da indiki kimi amerikalı general Harbord köməyə gəldi, lakin Ermənistana ərazini və dövləti bolşeviklər verdi. Ona görə də Paşinyan 1-ci erməni respublikasının baş naziri Amazasp Ohancanyanın yolunu gedir. "5000 rus əsgərini çıxar, biz ordu göndərək" deyən dövlətlərə sığınır. Halbuki, Ermənistana ən yaxşı təhlükəsizlik təminatını Azərbaycan və Türkiyə verə bilər. Əgər onlar avantüraya gedib sülh müqaviləsini imzalamasalar, Ermənistan özü boyda koridora çevriləcək. Biz İran, Rusiya, Amerika, İsrail və bütün dövlətləri Türkiyə lideri kimi gəlib azad torpaqlarda İlham Əliyevlə sülh və quruculuq müqaviləsi imzalamağa çağırırıq".

**İsmayıl**

# Fransanın vasitəçiliyindən söhbət gedə bilməz

## Makronun son çıxışlarında Praqa yox, ”Ermənistan ruhu” daha çox hiss olunur



**Fransa uzun müddət Azərbaycana, bütövlükdə türk dünyasına qarşı qərəzli mövqedən çıxış edib. Hazırda rəsmi Parisin niyyəti geopolitik baxımdan normadan artıq iddialı görünmək və Cənubi Qafqazdakı proseslərə müdaxilə etməkdir.**

Daha doğrusu, Fransa bölgədə Rusiyanı əvəzləməyə çalışır. Fransanın Azərbaycandakı səfiri Zakari Qrosun son məqaləsi də bunu açıq-aşkar büruzə verir. Səfir öz məqaləsində yazıb ki, Fransa Prezidenti E.Makronun proseslərdə aktiv iştirakı Praqada uğurlu nəticə əldə etmək üçün həlledici əhəmiyyətə malik olub. ”Yaşasın Praqa ruhu!” yazan səfir Makronun danışıqlarda iştirakını və əldə olunmuş nəticələri az qala Fransanın ”xüsusi xidməti” kimi təqdim etməyə çalışıb. Halbuki, Makronun son çıxışlarında Praqa yox, ”Ermənistan ruhu” daha çox hiss olunur. Ekspertlərin fikrincə, Fransa həqiqətən regionda sülh istəyirsə, prosesə qarışmamaqla bu işə öz töhfəsini vermiş olar.

**Paris həqiqətən regionda sülh istəyirsə, prosesə qarışmamalıdır**

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Fransa səfirinin məlum sözləri Ermənistana ”ayı xidməti”dir. Analitik vurğulayıb ki, Fransa heç vaxt ədalətli mövqe sərgiləməyib:**

”Praqa görüşlərində də rəsmi Paris birmənalı Ermənistanın maraqları çərçivəsində iştirak edib. Fransa neytral ölkə deyil və açıq-aşkar tərəf tutan bir dövlətin vasitəçiliyindən söhbət gedə bilməz. Makron Cənubi Qafqazda Ermənistanı dəstəkləməklə, ilk növbədə erməni lobbisinin maraqlarını müdafiə edir. Ermənistan vasitəsi ilə regionda öz geo-siyasi ambisiyalarını gücləndirməyə çalışır. Məsələ ondadır ki, Fransa Cənubi Qafqaz regionuna Türkiyə ilə rəqabət fonunda baxır. Məqsədlərdən biri məhz İrəvanın əliylə Türkiyəni bölgədən xaric etməyə, ən azından mövqeyini zəiflətməyə cəhd göstərir. Şübhəsiz, bu istək baş tutmayacaq. Fransanın bölgəmizdə gücü və təsir imkanları o zaman olardı ki, rəsmi Paris həqiqətən də Azərbaycan-Ermənistan arasındakı sülhə öz mühüm töhfəsini vermiş olardı. Ancaq Fransanın belə bir qayəsinin olmadığını bilirik. Əslində erməni lobbisinin diktəsi ilə aparılan bu siyasət Ermənistanın özünün əleyhinədir. İrəvan sülh müqaviləsindən yayındığı müddətcə iqtisadi blokadadan yaxa qurtara bilməyəcək”.

**İsmayıl Qocayev**

# Nəzarət edən yoxdur

## Toylarda zəhərlənmələr ən çox salatlardan baş verir

**Ölkədə kütləvi zəhərlənmələrin sayı artıb. Xüsusilə bölgələrdə tez-tez qida zəhərlənmələri baş verir. Belə ki, ötən gün Şəki şəhərində keçirilən toy məclisində qida zəhərlənməsi baş verib. Hadisə rayonun Şin kəndində keçirilən toyda olub.**

Rayonun Baş Göynük kənd sakinləri - 1958-ci il təvəllüdlü Əsgər Qara oğlu Əsgərov, 1961-ci il təvəllüdlü Sənyarə İbrahim qızı Aslanova, 1975-ci il təvəllüdlü Vüsalə Sabir qızı Aslanova, 1953-cü il təvəllüdlü Rəcəb Şərif oğlu Əhmədov, 1972-ci il təvəllüdlü Bahar Musa qızı Cəfərova, 1962-ci il təvəllüdlü Surayə Həsən qızı Cəfərova, eyni zamanda, Balakən rayon sakini 1958-ci il təvəllüdlü Hidayət Həsən oğlu Aydəmirov və qida zəhərlənməsi əlamətləri ilə Şəki Rayon Mərkəzi Xəstəxanasına müraciət ediblər. Onlardan müvafiq nümunələr götürülüb və evə buraxılıblar. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupunun baş inspektoru, polis kapitanı Mahir Məsimov Oxu.Az-ın sorğusuna cavab olaraq bildirib ki, daxil olmuş məlumat əsasında Şəki Şəhər Rayon Polis Şöbəsinin və Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən şadlıq sarayına baxış keçirilib: ”İstifadə olunan qidalardan nümunələr götürülərək ekspertizaya göndərilib. Xəstəxanaya müraciət edən 7 nəfərin hər birinə isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb və hazırda faktla bağlı araşdırma aparılır”.



“Elə salatlar var ki, onların saxlanma müddəti 3-4 saatdır, amma onu təkrar istehlakçıya qaytarırlar”

Toy sahibinə bir neçə min manata gələn şadlıq məclisində verilən yeməklərin sonunda qonaqların sağlamlığı bahasına başa gəlməsi də günümüzün reallığıdır.

**Toylarda tez-tez baş verən zəhərlənmə halları haqda danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, toylarda olan elə salatlar var ki, onların saxlanma müddəti 3-4 saatdır, amma buna nəzarət edən yoxdur.**

Ekspert bildirib ki, bu sahəyə müvafiq qurumların ciddi nəzarət etməsi vacibdir: ”Azərbaycan toyları istehlakçıların kütləvi, tədrici və ya qəfil zəhərləndiyi yerlərdir. Toylarda iş başlayan zaman dövlət məmurunun işi qurtarır. AQTA yaranan gündən biz təklif etmişik ki, cəld reaksiya mexanizmi yaratmaq lazımdır. Bu saat vəziyyət elədir ki, təhlükəli qida satılırsa, kimə zəng vurursan, vur, heç bir mexanizm yoxdur ki, onun qarşısını alsın. AQTA kimi çox böyük səlahiyyətlərə malik olan bir qurum olduğu vaxtda ona görə bu hadisələr baş verir ki, AQTA əlində sertifikatlaşdırma funksiyasını birləşdirir, yəni sertifikatlaşdıran orqan müstəqil olmalıdır. Toyxana qida zəncirində iştirak edən bir subyektdir. Onlar AQTA tərkibində reyestrə daxil olurlar və onlara sertifikat verilir. Sonra da zəhərlənmə hadisəsi olanda AQTA sertifikatını masanın üstünə qoyub deyir ki, bunu sən vermisən, yəni özü-öz sertifikatını təkzib edə bilməz. Ona görə də biz həmişə təklif etmişik ki, sertifikat verən orqan müstəqil olsun, müstəqil ekspertiza məhkəmələrdə tanınsın. Amma çox təəssüflər olsun ki, bunlar yoxdur və nə qədər belə olacaq, zəhərlənmə hadisələri də baş verəcək.

Toylarda olan elə salatlar var ki, onların saxlanma müddəti 3-4 saatdır, amma buna nəzarət edən yoxdur. Ölkədə vaxtı keçmiş qidaların son ünvanı yerli istehlakçılardır. Biz təklif etmişik ki, vaxtı keçmiş qidalar istehsalçıya qaytarılmasın, əksinə, birbaşa məhv edilsin. Təəssüf ki, bu məsələlər həll olunmur və ona görə də bu kimi problemlər yaşanır”.

**Şəymən**

# BMT eksperti Ağdamı görəndə şok keçirib



**“Mənim Ağdam şəhəri üçün gözləntilərim çox fərqli idi. Buranı dinamik şəhər kimi təsəvvür edirdim”.**

Trend xəbər verir ki, bunu bu gün Ombudsmanların Bakı Beynəlxalq Konfransının iştirakçısı olan BMT və beynəlxalq insan hüquqları üzrə ekspert Afərin Şahidzadə Ağdama səfər zamanı jurnalistərə açıqlamasında deyib.

O bildirib ki, Ağdamı görəndə şok keçirib.

”Ümumiyyətlə, bu cür cinayət əməlləri qəbuledilməzdir. Nəzərə alsaq ki, mən bir çox müharibələrdə təcrübələr yaşamışam. Bu torpaqlar 30 il işğal altında olub, burada baş vermiş cinayət əməlləri, vəhşiliklər müharibə cinayətidir və heç bir insan hüququndan söhbət belə gedə bilməz”, - ekspert qeyd edib.

# 64 nəfər professor vəzifəsinə təsdiqlənib

## BDU-nun professor, dosent və müəllim heyətinin maaşları artırılıb



**Bakı Dövlət Universitetinin (BDU) pofessor, dosent, elmlər və fəlsəfə doktorları və müəllim heyətinin maaşları artırılıb.**

Bu barədə ali təhsil müəssisəsindən məlumat verilib.

Bildirilib ki, BDU-nun Elmi Şuranın növbəti iclası keçirilib və cari məsələlərə baxılıb.

Elmi Şuranın qərarına əsasən, tədris fəaliyyətinə cəlb edilən işçilərin əməyinin saathesabı qaydada ödənilməsinin məbləği artırılıb. Bu məbləğ 1 saata görə professor və ya elmlər doktorları üçün 10 manatdan 15 manata, dosent və ya fəlsəfə doktorları üçün 7 manat 50 qəpikdən 11 manata, elmi adı və ya dərəcəsi olmayan müəllimlər üçün 5 manatdan 7 manat 50 qəpiyə qaldırılıb.

Eyni zamanda yığıncaqda BDU üzrə boş olan professor vəzifələrinin tutulması üçün seçkilər keçirilib. Seçkinin nəticələrinə əsasən, BDU-nun 10 fakültəsi üzrə 64 nəfər professor vəzifəsinə təsdiqlənib. Elmi Şura həmçinin 2022-ci il üçün BDU-nun doktoranturasına qəbulun nəticələrini təsdiqləyib.

# Bu il 184 uşaq övladlığa verilib

## 91 uşaq isə ailəsinə qaytarılıb



**Bu il 184 uşaq övladlığa verilib. Bunu Sosial Xidmətlər Agentliyinin Övladlığagötürmə departamentinin müdiri Cavid Şahmalıyev bildirib.**

Onun sözlərinə görə, valideyn himayəsindən məhrum olan 91 uşaq isə öz doğma ailəsinə reinteqrasiya edilib:

”Himayəyə götürülən uşaq sonradan övladlığa da götürülə bilər. Hər valideyn himayəsindən məhrum olan uşaq övladlığa verilə bilmir. Əgər uşağın övladlıq verilə bilməsi üçün hüquqi əsas olarsa, o zaman həmin valideynlə himayədar ailə arasında uşağın övladlığa verilməsi prosesində bir sıra mərhələlər aradan götürülür. Çünki artıq uyğunlaşma gedib, bundan sonra birbaşa məhkəməyə uşağın övladlığa verilməsinə uyğunluğa dair rəy hazırlanması üçün müraciət edilir. Övladlığa götürülmənin nəticəsi məhkəmənin qətnaməsi ilə olur”.



# İnam çox azdır

## Qadağalarla məktəblərdə nizam-intizam yaratmaq mümkün olmayacaq

**Elm və Təhsil Nazirliyi orta ümumtəhsil məktəbləri ilə bağlı yeni qaydalar müəyyənləşdirib. Yeni qaydalar "Valideyn-məktəb münasibətlərinin tənzimlənməsi üzrə təlimat", "Ümumi təhsil müəssisələrində şagirdin davranış qaydaları"nda əksini tapıb. Yeni qaydalarda şagirdlərin məktəbdə ağıllı telefonlardan istifadəsinə qadağalardan başlamış, geyim tərzlərinədək, hətta valideynlərin məktəblə, müəllimlərlə nə zaman əlaqə saxlaya bilərə qədər, demək olar, hər bir detal ayrıca qeyd edilib.**

Görünən budur ki, Elm və Təhsil Nazirliyi orta məktəblərdəki özbaşınalığa son qoymaq üçün qollarını çırmayıb. Amma nazirlik əlini boşuna bulamış olmasın?!. Tətbiq edilən qadağaların, yeni qaydaların, nizam-intizam toplusunun, valideynlərin məcburi iştirakı ilə yaradılan İntizam Şuralarının təhsilin keyfiyyətinə, məktəblərdə səliqə-səhman yaradacağına inam, açığı, çox zəifdir.

Məsələ bundadır ki, cəmiyyət qadağa sözünü aqressiv qarşılayır. Nazirliyin məktəbli geyimi ilə bağlı tətbiq edəcəyi qadağalara artıq indidən sərt reaksiyalar verilir. Növbəti tədris ilindən tətbiqi gözlənilən yeni qaydalara görə, məktəblinin saçının uzunluğu çiyindən aşağıdırsa, saçlar arxada toplanmalıdır, geyim dar, dizdən yuxarı olmamalı, məktəbli dərsə hündürdaban ayaqqabıyla gəlməməli, zinət əşyalarından istifadə etməməlidir. Saçlar boyanmamalı, dırnaqlar rəngli, uzun olmamalıdır. Məktəbli qızlara hər hansı makiyaja, oğlanlara isə saç uzatmaq, saqqal saxlamağa icazə verilməyəcək.

**Qadağalar valideynlər tərəfindən birmənalı qarşılanmayıb. Ekspertlər arasında da yenə fikir ayrılıqları mövcuddur. Qadağaları lazımlı sayanlarla yanaşı, onları əhəmiyyətsiz hesab edənlər də var. Məsələ ilə bağlı Bakupost.az -a açıqlama verən Əməkdar elm xadimi, professor Şahlar Əsgərov bildirib ki, məktəblərdə qoyulan qadağalar çox əhəmiyyətsizdir. Professor qeyd edib ki, bu, Azərbaycan xalqının arzuladığı təhsil deyil:**

- Məktəblərdə qoyulan qadağaları doğru hesab etmirəm. SSRİ-də atom bombası layihəsinin elmi rəhbəri, akademik Yuli Xariton deyirdi ki, elmdə, təhsildə qadağalar olmaz, amma hərbidə olar. Elm-təhsil hərb deyil ki, orada hər şey qadağalarla olsun. Məktəbə ona görə pul ayrılır ki, uşaqlara faydalı, effektli tədris verilsin. Yoxsa qadağan etmək nədir? Çox əhəmiyyətsiz bir şeydir. Bu problem gündəlikdə varsa, kökünü tapıb həll etmək lazımdır. Bunun səbəbini hüquqşünas, iqtisadçı heç vaxt bilməz. Nəyi, necə etmək lazım olduğunu yalnız pedaqoqlar bilər. Əlbəttə ki, məktəbli forması alqışlanası bir hadisədir. Məktəb o qədər yaxşı olmalıdır ki, uşaq o formanı geyinəndə məktəbliyəm deyib, fəxr etməlidir".

Ekspertin fikrincə, formanı zorla məktəbliyə geyindirmək, yaxud çıxartmaq doğru deyil: "Bu, Azərbaycan xalqının arzuladığı təhsil deyil. Ola bilər, kimlərsə bunu arzu edib. Xarici filmlərə nəzər yetirsəz görərsiz ki, məktəblərdə uşaqlar stolun üstünə çıxır. Lakin müəllim onu qadağan etmir, sadəcə, başa salır. Tərbiyə sistemi nədən ötrüdür? Qadağalar qoymaqdansa, məktəbdən qovulmuş tərbiyə sistemini yenidən məktəbə gətirsinlər".

**Sosioloq, təcrübəli pedaqoq Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında qeyd etdi ki, problem Elm və Təhsil Nazirliyinin qadağaları əsaslandıra bilməməsindədir:**

- Təhsil Nazirliyini başa düşürəm, valideynləri də, özünü təhsil eksperti adlandıranları da. Hər kəs öz mövqeyində haqlıdır. Həm də haqsızdır. Problem bundadır ki, ortada metodoloji cəhətdən səhv yanaşma mövcuddur. Azərbaycan təhsilinin ən böyük çatışmazlığı dərs mühitinin olmamasıdır. Bunu təmin etmək üçün də lazımi səviyyədə təcrübə çatmır. Bunlar elə məsələlərdir ki, səhv addım atmaq olmaz. Lakin görürük ki, ard-arda səhv addımlar atılır, nəticə etibarilə bütün səhvlər toplaşıb təhsil sistemimizi bərbad hala salıb. Artıq bir neçə onillikdir, tövsiyə olunur ki, cəmiyyətə "bunu et, bunu etmə" prinsipini diktə etmək olmaz. Hazırda 20-30 il əvvəlki idarəetmə üsulu ilə idarə etmək mümkün deyil. Sosial həyatın istənilən bir sahəsində, o cümlədən təhsildə uğur qazanmaq üçün o sahədə elə vəziyyət yaradılmalıdır ki, mövcud potensial üzə çıxsın və o sahə özü hərəkətə keçsin. İndiki vaxtda mühit arzuolunmazdır. Fikir vermisinizsə, sentyabr ayında yeni tədris ili başlananda "qarnı açıq" (qısa koftalar) qızlar da çoxaldı. Şəxsən mən tələbələrimə bu cür geyimlərdə dərsə gəlməyi qadağan etmişəm. Bildirmişəm ki, bu cür geyimli qızlar auditoriyaya daxil olmasın. İndi kimsə, iddia edə bilər ki, mən tələbənin geyim azadlığını məhdudlaşdırıram. Bunu kim iddia edirsə, dar düşüncəli, metodika, pedaqogika və psixologiyadan bixəbər insandır. Auditoriyada bir tələbə qızın qısa ətəkdə, yaxud bel, qarın nahiyəsi açıq koftada əyləşməsi, təbii olaraq digər tələbələrin diqqətini dağıdacaq. Eləcə də əgər tələbə və ya şagird dərsə qulağında sırğa, müxtəlif bəzək, zinət əşyaları ilə gəlirsə, digər tələbə və şagirdlərin dərsdə diqqətinin dağılacağı labüddür. O uşaqların fikri dərsdə olmayacaq, gərginlik yaranacaq. Bunu kimsə, nəfsi cilovlamaqla, ehtirası ələ almaqla əlaqələndirməyə çalışmasın. Məktəb, sinif otağı, eləcə də auditoriya təcrübə poliqonu deyil, yoxlayaq ki, beli, qarnı açıq tələbə qız və ya şalvarı belindən düşən oğlana çoxmu diqqət yetirildi, dərsdə fikir yayındı, yayınmadı. Birdəfəlik qəbul edilməlidir ki, təhsil ocağının öz geyim tərzi olmalıdır. Sadəcə, problem nazirliyin adi sayılan bu məsələni düzgün formada ictimaiyyətə çatdıra bilməməsindədir. Nazirlik izah edə bilmir, əsaslandıra bilmir ki, niyə məktəbli qız saçlarını çiyinlərindən aşağı salmamalıdır, niyə dar, qısa geyimdə, sığayla, bahalı saatla, saqqalla məktəbə gəlmək olmaz və sair. Nazirlik əvvəlcə ictimai fikri hazırlamalıdır ki, obyekt hərəkətə gəlsin və özü prosesə qoşulsun və prosesə kömək etməyə başlasın. Mənim tələbələrim tətbiq etdiyim



Əhməd Qəşəmoğlu: "Problem Elm və Təhsil Nazirliyinin qadağaları əsaslandıra bilməməsindədir"

qaydaları normal qarşılayır və əməl edirlər. Çünki onlara əvvəlcə bunun səbəbini başa salmışam, anlatmışam. Mənim auditoriyam buna hazırdır.

Təhsil Nazirliyi də qaydaları tətbiq etməzdən öncə, şagirdlərə "niyə sən bu formanı geyinməlisən"i anlatmalıdır. Baxın, Qori seminariyasına cəmi 7 sinif olub. Amma bu seminariyada dahilər yetişib. Çünki orda həqiqi təhsil mühiti vardı. Qori seminariyasının tələbələri vahid geyimdə idilər. Davranış qaydaları da çox sərt idi. Amma bu, tələbələrin yüksək savad almasına mane olmurdu. Mən qətiyyən bu fikirdə deyiləm ki, orta və ya ali məktəblərdə sərt qaydalar tətbiq edilməlidir. Xeyr, təhsil müəssisəsində elə bir mühit olmalıdır ki, şagird özünü şagird, tələbə də tələbə kimi hiss etsin və buna uyğun davransın. Bunun üçün də təhsil mühitinin sağlamlaşmasına xidmət edəcək qaydalar tətbiq edilməlidir. Bura geyim də daxildir, şagirdlərin, müəllimlərin davranışı da. Məktəb təlim və tədris ocağıdırsa, şagirdə təhsillə yanaşı, davranış qaydalarını da öyrətməli, insan yetişdirməlidir.



**"Onlara elə gəlir ki, hamıdan ağıllıdırlar. Amma görürük ki, bu "ağıllı" adamlar illərdir təhsil sahəsini heç bir addım da irəli aparmayıb"**

**Ə.Qəşəmoğlu qeyd etdi ki, hazırda Elm və Təhsil Nazirliyinin qarşısında olduqca zəruri iş dayanır:**

- Nazirlik təhsil mühitinin sağlamlaşdırılması üçün yollar, vasitələr axtarmalıdır. Ailələrlə iş sistemi qurulmalıdır, valideynlərlə birgə iş aparılmalıdır, məktəblərdə sosial işçilər olmalıdır. Mən bunu neçə ildir deyirəm, amma eşidən yoxdur. Mənim təkliflərim səviyyəsində olmayan məmur hər hansı təklif qəbul etmək istəmir. Onlara elə gəlir ki, hamıdan ağıllıdırlar, amma görürük ki, bu "ağıllı" adamlar illərdir təhsil sahəsini heç bir addım da irəli aparmayıb.

**Məlahət Rzayeva**



## Diplomatik pasportu olan Azərbaycan vətəndaşları Əlcəzairə vizasız səfər edəcək

**Diplomatik pasportlara malik Azərbaycan vətəndaşları Əlcəzairə gedərkən viza tələbindən azad olacaq.**

Parlamentin dünən keçirilən iclasında "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi müzakirəyə çıxarılıb.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq qəbul edilib.

## Vəfat edən olmayıb

### Daha 47 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 47 yeni yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 822 852 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 812 544 nəfər müalicə olunaraq sağalıb, 9 935 nəfər vəfat edib, aktiv xəstə sayı 373 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 962, hazırkı dövrədək isə 7 301 286 test aparılıb.*

## İran öz vətədaşlarını Ukraynanı tərk etməyə çağırıb



**Ukraynada hərbi münaqişələrin şiddətlənməsi və təhlükəsizliyin artması ilə əlaqədar bütün İran vətəndaşlarına bu ölkəyə səfərdən çəkinmələri tövsiyə olunur.**

APA xəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin məlumatında qeyd olunub.

"Ukraynada olan iranlılar da canlarını və təhlükəsizliyini qorumaq üçün bu ölkəni tərk etməlidirlər", - məlumatda vurğulnıb.

# Makron açıq şəkildə tərəf tutur

## "Fransaya bundan sonra etimad göstərmək mümkün deyil"



**Fransanın Azərbaycandakı səfiri Zaxari Qros son məqaləsində yazır: "Aİ-nin sülh prosesinə fəal dəstəyi əvəzsizdir və Fransa prezidentinin iştirakı Praqada uğurlu nəticə əldə etmək üçün həlledici əhəmiyyətə malikdir. Yaşasın Praqa ruhu!".**

Bu onu göstərir ki, rəsmi Paris Praqada əldə olunmuş nəticələri az qala Fransanın "xüsusi xidməti" kimi təqdim etməyə çalışır. Digər tərəfdən, Fransa XİN başçısı və prezidenti verdikləri qərəzli və birtərəfli bəyanatlarla "Praqa ruhu"nu öldürürlər. Makronun son çıxışlarında isə daha çox Praqa yox, "Ermənistan ruhu" hiss olunur.

**Millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov məsələ ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, rəsmi Paris hazırda nə etmək istəyini özü də bilmir.** "Həm nala, həm mıxa vurmaqla" heç nə əldə etmək etmək mümkün deyil. Ən əsası bir məsələni bilmək lazımdır. Hansısa tərəflərin birbirinə yaxınlaşması istiqamətində fəaliyyət göstərirsənsə, bu istiqamətdə onların sənə etimad etməsini istəyirsənsə, ən azı neytral mövqedə dayanmalısan. Ona görə fransızlar, xüsusilə Prezident Emmanuel Makron əvvəlcə özü-özünə bu sualları versin: "Praqada böyük nailiyyətlərin əldə olunmasına iştirak etdikdən sonra, ey Makron, o nə çıxış idi etdin?! Fransa Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, ay prezident, sən necə onu şübhə altına qoya bildin?! Hər iki tərəf arasında münasibətləri normallaşdırmağa çalışan insan necə oldu ki, sən Ermənistanın mövqeyini əsas götürüb Azərbaycanı əsassız ittiham etdin?! Fransa nə etmək istəyir?! Rəsmi Paris tərəflər arasındakı münasibətləri qaydaya salmaq, yoxsa daha da qarışdırmaq, vasitəçi olmaq, yoxsa tərəf tutmaq istəyir?! Avropanın bir sifətini göstərmək, yoxsa elə onun ikili standarta malik bir məkan olduğunu bildirmək istəyir?! Hələ ki bu sualların hamısı cavabsız qalır".

**Millət vəkilinin qənaətincə, Fransanın Azərbaycandakı səfiri belə bir məqalə yazmaqla, E.Makronun bundan öncə ölkəmizə qarşı səsləndirdiyi bəyanatı unutdurmaq istəyir:**

"Amma buna nail ola bilməyəcək. Bizim ərazi bütövlüyümüzü qəbul etmirlər, tərəf tuturlar. Biz bunu necə unuda bilərik?! Fransa səfiri və fransızlar bundan sonra da belə addımlar atacaqlar. Çünki onlar da çox böyük səhvə yol verdiklərini başa düşdülər. İndi özlərinə bəraət qazandırmaq istəyirlər".

S.Seyidov son olaraq artıq Fransanın Azərbaycan-Ermənistan arasındakı danışıqlar prosesindəki mövcudluğunun sual altında olduğunu diqqətə çatdırıb.

**Günəş Mərd**



# İslahatlar gözlənilmir

## İranda iğtişaşlar artan xətt üzrə inkişaf edəcək

**"Bu gün İranda vəziyyət olduqca qarışıqdır. Buna rəğmən təəssüf ki, hərbi təlimlər keçirilməklə və Azərbaycanı təhdid etməklə bağlı müəyyən qərarlar da verirlər".**

Bu barədə "Şərq"ə politoloq Rusif Məmmədsoy deyib. Onun sözlərinə görə, İran Qərblə əks mövqedə dayanıb: "Xüsusilə də demokratik baxımdan heç bir islahata getməyən İran düşünür ki, insanları qətlə yetirməklə, xarici ölkə vətəndaşlarını həbs etməklə bu proseslərdə hər hansı bir uğura nail olacaq.

Amma bu, mümkün deyil. İran müsbət nəticə əldə etmək istəyirsə, islahatlara getməlidir.

İrandakı mövcud hakimiyyət müəyyən tədbirlər həyata keçirmək fikrində deyil. Düşünmürəm ki, iğtişaşlar dayansın. Hətta artan xətt üzrə inkişaf etməsi də ehtimal olunur".

*Qeyd edək ki, İranda aralarında ABŞ, Britaniya və Fransa vətəndaşlarının da olduğu 14 xarici ölkə vətəndaşı təhlükəsizlik qüvvələri tərəfindən həbs edilib.*

**Sücayət Mehti**

# ABŞ-ın güclü dəstəyi hiss olunur

## Ermənistan, İran və Hindistan Rusiyaya qarşı birləşir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cəbrayıl şəhərində bəyanatla çıxış edib. O, bəzi dairələrin Zəngəzur dəhlizi ilə bağlı keçirdiyi qorxu və narahatlığın reallıqdan uzaq olduğunu vurğulayıb: "Qarabağda atılan bütün addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur".**

*Analitik Turab Rzayev Zəngəzur dəhlizinin geopolitik önəmindən "Şərq"ə danışarkən bildirib ki, indi Fransa-İran-Ermənistan geopolitik ittifaqına qarşı Türkiyə-Azərbaycan-Rusiya geopolitik ittifaqı formalaşıb:* "Nə qədər etiraf etməyə çətinlik çəksək də, bölgəmizin və dünyanın geopolitik reallığı bu şəkildə formalaşır. Putin Rusiyanın qazpaylayıcı şəbəkəsinin açarını Türkiyəyə verir. Rusiyanın əbədi müttəfiqi İran isə gizli şəkildə Fransa ilə birlikdə Ermənistandan Qara dənizə qaz kəməri çəkməyə çalışır.

Rusiyanın daha bir ənənəvi müttəfiqi Hindistan da, Şimal-Cənub layihəsinin istiqamətini İran-Azərbaycan-Rusiya konturundan İran-Ermənistan-Qara dəniz istiqamətinə çevirir. Rusiyanın Pakistan ilə son yaxınlaşması, bəlkə həm də getdikcə daha sürətlə ABŞ orbitinə girən Hindistana etibar etmədiyi üçündür.

Beləliklə, Fransa dolayısı ilə Avropa İttifaqı həm qaz kəmərlərini, həm də qlobal əhəmiyyətli nəqliyyat dəhlizlərini İran və Hindistanı da yanına alaraq sırf Ermənistan üzərindən, Rusiya, Türkiyə və Azərbaycanı kənarda saxlamaqla həyata keçirməyə çalışır. Görünən odur ki, bu layihədə güclü ABŞ dəstəyi də var".

**Günəş Mərd**



# Qafanda tələm-tələsik konsulluq açıldı

## İran açıq şəkildə Azərbaycana düşmənçilik etdiyini elan edir

**"İranın Qafanda konsulluq açması Qərbi Zəngəzurda mövcud olmaq planının tərkib hissəsidir".**

**Bu barədə "Şərq"ə analitik Asif Nərimanlı bildirib. O qeyd edib:** "Bu addımı indi, özü də inşası başa çatmayan binada təcili etməsi Ərdoğanın Şərqi Zəngəzura gəlişindən qaynaqlanır. Molla rejimi Bakı-Ankara birliyinə Tehran-İrəvan "qardaşlığı" ilə cavab verir. Alayarımçıq binada "qırmızı lenti" kəsən Abdullahianın verdiyi açıqlamalar bu kontekstdə diqqət çəkir.

Birincisi, İran Ermənistanın və regionun təhlükəsizliyini özünün təhlükəsizliyi hesab edir. İkincisi, qafanlılara demək istəyirəm ki, narahat olmasınlar, biz erməni xalqı üçün buradayıq. Qafandakı baş konsulu Mürtəza Abdin Vəramin də vəzifəsinə başlayan kimi "Azərbaycanın Ermənistan ərazisinə guya "hücumu" iddialarına münasibət bildirib və qeyd edib ki, "İran sərhədlərin dəyişikliyinə müdaxilə edəcək". İran açıq şəkildə Azərbaycana düşmənçilik etdiyini elan edir".

**Günəş Mərd**

# Azərbaycan qardaşlıq nümunəsidir

## "TDT din xadimlərinin görüşü türk dünyasının uğurudur"





**Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini liderlərinin üçüncü - Bakı görüşü baş tutub.**

Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PaşazadəTürk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, Türkiyə diyanət işləri başkanı Əli Erbaş, Özbəkistan müftisi Nuriddin Xoliknazarov, Qazaxıstanın baş müftisi Naurızbay Taqanulı, Türkmənistan müftisi Yalkab Xocaquliyev, elm, din, siyasi və ictimai xadimləri iştirak ediblər.

*TDT üzv ölkələrin müsəlman dini liderləri birgə bəyanat qəbul ediblər. Bəyanatda deyilir:* "Üzv dövlətlərdə dindövlət münasibətlərinin təkmilləşdirilməsi üçün müvafiq qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi üçün müvafiq layihələr hazırlanacaq. Birgə elmi və dini mərkəzlər yaratmaq, təlləbmüəllim və təcrübə mübadiləsinə kömək ediləcək".

**TDT din xadimlərinin bir araya gəlməsini "Şərq"ə dəyərləndirən ilahiyyatçı Hacı Atif İsmayılov bildirib ki, üzv dövlətlərin görüşü vətənə, cəmiyyətə dəstək verir:** "Qardaş ölkə Türkiyənin bütün sahələrdə Azərbaycanın yanında olması, Qarabağ müharibəsindəki dəstəyi əvəzsizdir. Həmfikirik, eyni istiqamətdə addımlayırıq.

Görüş müsəlman birliyinin reallaşmasına töhfə verəcək. Türkiyə ilə həm dini, həm ideoloji baxımdan eyni mövqeyi təmsil edirik. Azərbaycan da dünya müsəlmanlarına qardaşlıq nümunəsi olacaq. TDT dövlətlərin dünyəvi və dini cəhətdən birləşməsi ümumiyasda Azərbaycanın və türk dünyasının uğurudur".

**İlahiyyatçı Elşad Mirinin qənaətincə, görüşdə yeni məsələlərə toxunulmayıb:** "Tədbirlə bağlı məlumatlar oxudum. Orda deyilənlər yeni deyil. Sanki əvvəlki mərhələlərdə söylənilənlərin təkrarıdır. Ümumi fikirlərdir, konkretləşdirilmir.

İslam dini nəzəriyyəni yox, praktikanı önə çəkən dindir. Din xadimlərinin bir araya gəlməsini sadəcə gördükləri işlərin nəticəsi olaraq müşahidə etdim".

**Aygün Tahir**

**Elan**

AzTU-nun nəzdində BDRN kolleci tərəfindən 511b qrup tələbəsi Cahangirzadə Hüseyn Nemət oğluna 29 sentyabr 2020-ci ildə verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"Təhqiqat" qəzetinin baş redaktoru Yaqub Məğrur, şöbə müdirləri Hacı Habil Məmmədov, Vidadi Turablı, Qəribxan Dağlaroğlu və redaksiya heyəti, qəzetin əməkdaşı Mətləb Əliyevə, atası mərhum

**Mütəllim Novruz oğlunun**

qəfil vəfatından kədərləndiklərini bildirir, ona və mərhumun bütün yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;**




# Rəqəmsal hökumətə keçid reallaşdırılır

## Bu istiqamətdə vahid koordinasiyanı həyata keçirmək başlıca vəzifədir

**Müasir dünyada gedən qloballaşma, modernləşmə və informasiyalaşma prosesləri birbirilə əlaqəli olub, biri digərini şərtləndirir. Son illərdə dünyada müxtəlif sahələrdə mühüm dəyişikliklər baş verib ki, bu dəyişikliklər onların klassik strukturuna yenidən baxmaq və o sahədə əsaslı dəyişikliklər aparmaq zərurəti yaradıb. Həmin dəyişikliklərə ilk növbədə informasiya istehlakı və onun yayılması proseslərini aid etmək olar.**

Bəzi inkişaf etmiş ölkələr - Yaponiya, Kanada, Qərbi Avropa 1960-cı illərdən başlayaraq sənaye iqtisadiyyatından informasiya iqtisadiyyatına keçməyə başlayıblar. Bu proses öz növbəsində cəmiyyətin transformasiyası, yeni informasiya cəmiyyətinə keçid ilə sonlanıb. Müasir qloballaşma dövründə informasiya cəmiyyətinə keçid bu cəmiyyətə xas olan dövlət idarəçiliyinin formalaşmasını - ”elektron hökumət” yaradılmasını tələb edir. Dünyanın müxtəlif ölkələrində və ilk olaraq ABŞ və Böyük Britaniyada ”e-hökumət” ümumilikdə dövlətin fəaliyyətinin keyfiyyətinin artırılmasına istiqamətlənmiş bir konseptual sənəd kimi baxılır. Əsas mahiyyəti isə budur ki, müxtəlif səviyyəli dövlət qurumları müasir informasiya texnologiyalarından istifadə edərək vətəndaşlara şəffaf, qərəzsiz informasiya və xidmətlər təklif edir.

”Elektron Hökumət” - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır. Yaradılan imkanların əsas məqsədi sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan ”məsafəni” azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün ”bir pəncərə” prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi ”Elektron Hökumət” portalı tətbiq edilir. Ölkəmizdə ”Elektron Hökumət”in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır. Bu məqsədlə yaradılmış ”Elektron Hökumətin İnkişafı Mərkəzi” dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində kordinasiyanı həyata keçirmək məqsədi ilə əlaqələndirici qurum funksiyalarını yerinə yetirməklə yanaşı xidmətlərin əhali arasında təbliğatının da həyata keçirilməsindən məsuldur. Mərkəz, müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsini təmin edir. Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət xidmətləri, ”e-viza” verilməsi və rəqəmsal ödəniş sistemləri üzrə xidmətləri əhatə edir. Qeyd olunan sahələrdə xidmət keyfiyyətinin yüksəldilməsi, xidmətdən yararlanmanın asanlaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə qabaqcıl beynəlxalq təcrübələr araşdırılıb. Vətəndaş ehtiyacları nəzərə alınmaqla innovativ yeniliklər tətbiq olunub. ”Elektron Hökumətin İnkişafı Mərkəzi” elektron xidmətlərin göstərilməsini ”Elektron Hökumət” portalı vasitəsilə təşkil edir.

17 oktyabr 2022-ci il tarixində Quba şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə Elektron Hökumət üzrə İcra Qrupunun növbəti görüşü baş tutub. Görüşdə 60-a yaxın müxtəlif dövlət qurumlarının aidiyyəti struktur bölmələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri, ekspertlər olmaqla 70 nümayəndə iştirak edib. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini, Elektron Hökumət üzrə İcra Qrupunun rəhbəri Ceyhun Salmanov ölkəmizdə rəqəmsal hökumət quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdən və icrası nəzərdə tutulan layihələrdən, müasir çağırışlardan söz açıb. Ardınca rəqəmsal xidmətlərin təbliği və təşviqi, dövlət informasiya resurslarında kibertəhlükəsizlik mövzularında təqdimatlar edilib. Həmçinin ”opendata” mövzusu, ”Mobil Notariat”, ”E-qanun” mobil tətbiqləri barədə danışılıb. Ədliyyə Nazirliyi İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə bildirib ki, vətəndaşlara göstərilən xidmətlərin əlçatan və şəffaf olması mobil tətbiqlərə diqqəti artırıb. Daha sonra Ədliyyə Nazirliyinin nümayəndələri Qismət Qurbanov və Zaur Həsənov ”Hüquqi aktların vahid elektron bazası”nın (E-qanun.az) mobil versiyasının və ”Mobil notariat” tətbiqinin funksional imkanlarını nümayiş etdiriblər. Sonda iştirakçılarla elektron hökumətə keçid ilə bağlı tədbirlərdən danışılıb. Bu sahədə mövcud vəziyyət və perspektiv inkişaf istiqamətləri barədə məlumatlar verilib. Eləcə də faydalı fikir mübadiləsi aparılıb.

***"Artıq milyonlarla əmlaka sahib olan Azərbaycan vətəndaşının öz daşınmaz əmlakı üzərində istənilən hərəkətləri etmək üçün fiziki olaraq iştirakına ehtiyac yoxdur"***

**”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib ki, 6-cı dəfə təşkil olunan bu formatda görüş çox faydalıdır. Ötən dövrdə bu istiqamətdə müəyyən işlər görülüb. Ekspert vurğulayıb ki, İcra Qrupu dövlət informasiya resursları sahəsində vahid koordinasiyanı həyata keçirmək, habelə rəqəmsal hökumətə keçidin, elektron hökumətin inkişafı və təşviqi üzrə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etmək məqsədi ilə yaradılıb:** ”Bununla belə hiss olunur ki, kordinasiyanın gücləndirməsinə ciddi ehtiyac var. Son dövrlərin beynəlxalq hesabatları da göstərir ki, görüləcək işlər daha çoxdur. Əgər rəqəmsal hökumət qurulursa və kordinasiya qrupu da onun əsas orqanıdırsa, demək, onun təsir imkanları genişləndirilməli və rolu artırılmalıdır. Nazirlər və nazir müavinləri, hökumət üzvləri, deputatlar bu tip görüşlərdə aktiv iştirak etməlidir.

Əks halda inteqrasiyanı tamamlamaq uzun zaman alacaq. Rəqəmsal hökumətə keçidin hüquqi təminatı çox ləngiyir. Son zamanlar yaxşı nümunələr də var. Görüşdə təqdim olunan ”Mobil notariat” resursunun son versiyası da hazırda ən faydalı hökumət rəqəmsal həlli hesab oluna bilər. Artıq milyonlarla əmlaka sahib olan Azərbaycan vətəndaşının öz daşınmaz əmlakı üzərində istənilən hərəkətləri etmək üçün fiziki olaraq iştirakına ehtiyac yoxdur. Yəni Azərbaycan vətəndaşı əmlakı üzərində hansısa sərəncam verilməsi üçün, almaq, satmaq, bağışlamaq və s. üçün dünyanın istənilən yerindən ”Mobil notariat” vasitəsilə başqa birisinə etibarnamə verə bilər. Çox uğurlu və olduqca faydalı bir işdir. Onlayn mühitdə bu tip əməliyyatları gerçəkləşdirmək üçün Ədliyyə Nazirliyi, notarial qurum şübhəsiz ki, xeyli sayda hökumət datalarına sahib olmalıdır. Görünür, qurum digər əlaqəli dövlət orqanları ilə xidmət göstərmək üçün zəruri olan çoxsaylı dataları inteqrasiya edə bilib. Ədliyyə Nazirliyinin, qurumun İT komandasının və dövlət-özəl tərəfdaşlıq çərçivəsində çalışan ”Crocusoft” şirkətinin rəqəmsal transformasiya sahəsindəki fəaliyyəti təqdirəlayiqdir. Ancaq faydalı, mobil rəqəmsal həllər hələlik çox azdır. Mövcud rəqəmsal arayışların və məlumatların hüquqi təminatı yaradılmalıdır. Düşünürəm ki, ”e-Gov” koordinasiya qrupunun rəhbərliyi dövlət qurumlarında ”eGov”a , rəqəmsal hökumətə cavabdeh şöbələrin və departamentlərin rolunun artırılması istiqamətində işlər aparmalıdır. Hər bir nazirlikdə nazir müavinlərindən biri yalnız rəqəmsal sektora cavabdehlik daşımalıdır və kordinasiya qrupunda təmsil olunmalıdır. İcra Qrupunun görüşlərinin intensivliyinin və məhsuldarlığının daha da artırılmasının əhəmiyyətli olacağını düşünürəm”.

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

Şərq
Müstəqil ictimai-siyasi qəzet
22 oktyabr 2022-ci il (şənbə)




# Pediatr üsyan etdi

## Tələbələrin, şagirdlərin ömrü qısalır

**Bakıda 8-ci sinif şagirdi vəfat edib. "Qafqazinfo" xəbər verir ki, paytaxtın Binəqədi rayonu ərazisində yerləşən Zəngilan rayon 4 mömrəli tam orta məktəbin şagirdi Abduləzimli Dəniz dünyasını dəyişib. Azyaşlının uzun sürən xəstəlikdən sonra vəfat etdiyi bildirilir.**

Ötən gün isə Oğuz rayonunun Çaldaş kənd tam orta məktəbində dərs zamanı 11-ci sinif şagirdi Zarina Əhməd qızı Əzizovanın qəflətən halı pisləşib. Məktəbli xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. Məktəbli qızın ölümü barədə danışan Çaldaş kənd məktəbinin direktoru Adil Səmədov hadisənin gənclərin "Çağırışaqədərki hazırlığı" dərsi zamanı baş verdiyini bildirib: "Zarina çox sakit, tərbiyəli, bir az da özünəqapalı qız idi, onun 6-cı dərsə qədər heç bir narahatlığı olmayıb, hava soyuq olduğu üçün dərs açıq havada deyil, idman zalında keçirilib. Qızın halı müəllim və şagirdlərin yanında pisləşib. Biz dərhal təcili tibbi yardım çağırdıq, təəssüf ki, həyatını xilas etmək mümkün olmadı". Direktorun sözlərinə görə, bir gün öncə Zarina özünü narahat hiss etdiyini deyirmiş: "Hadisədən bir gün əvvəl rayona anası ilə şəxsiyyət vəsiqəsi almaq üçün getmişdilər, bizdə olan məlumata görə, orada özünü pis hiss edib, sonra vəziyyəti normallaşıb. Amma vəfat etdiyi gün dərs müddətində narahatlığı olmayıb". Z.Əzizovanın atası da gənc yaşlarında qəflətən dünyasını dəyişib: "Zarinanın atası məktəbimizin gözətçisi olub, uşaqları kiçik yaşda olarkən, təxminən 6 il əvvəl vəfat edib. Zarinanın qardaşı 8-ci sinifdə oxuyur, ataları gözlərinin önündə canını tapşırmışdı. Bu hadisədən sonra oğlan da bacısı kimi özünə qapanmışdı. Onların ikisi də məktəbimizin ən sevimli şagirdləri olublar". Kənd bələdiyyəsindən bildirilib ki, məktəblinin ölümü ilə bağlı hazırda hüquq-mühafizə orqanında ekspertiza aparılır.

**Şagird ölümləri, təbii ki, ağrılı mövzudur. Bir neçə gün öncə pediatr Vaqif Qarayev tədris ilinin gedişatı, dərs yükünün ağırlığıyla bağlı valideynlərə müraciət edərək ehtiyatlı olmalarını tövsiyə etmişdi:**

- Hər il oktyabr və may aylarında valideynlərin məktəbli uşaqlarla bağlı şikayətləri çoxalır. 14 yaşı var, arterial təzyiqi yüksəkdi, gündüz 1-də dərsdən gəlir, sonra gedir hazırlıqlara, axşam 7-8-də evə qayıdır, sonra gecə 2-3-ə kimi dərs hazırlayır, səhər 7-də də oyanır... Tanış mənzərədi? Məncə, hə! Əksər ailələrdə belədir. Müəllimlər sertifikasiyadan keçirilir. Kimin üçün yoxlayırsız müəllimləri? Əgər uşaq başqa müəllimin yanına gedirsə, imtahan nəyə lazımdı?! Siz Allah, "repetitor bütün ölkələrdə var", nağılı ilə bizi ələ salmayın. Hansı ölkədə repetitor yanına belə kütləvi axın var? Hələ ibtidai sinif şagirdlərinin hazırlıq kurslarından danışmıram. Hansı ölkədə uşaq məktəbdə "bismillah" ələməmiş hazırlığa gedir?! Təhsil sağlamlığın hesabına olmamalıdır! Uşaq sağlam olmalıdır ki, yaxşı oxusun! Zavallı valideyn boğazından kəsib repetitora verir, uşağın sağlamlığı da belə!

**Şagird ölümlərinin mümkün səbəbləri barədə "Şərq"ə danışan həkim qeyd etdi ki, səbəblər çoxdur:**

- Məktəblinin ölümünə səbəb olan amillər mütləq vardır. Bunu dəfələrlə demişəm, bir daha təkrarlayıram ki, tədris sağlamlıq hesabına olmamalıdır. Tədris çox ağırdır. Bir yandan dərs yükü uşaqların belini büküb, bir yandan da məktəbli çantaları. Uşaqların dərslərini hazırlayıb bitirməsinə zaman çatmır e... Məktəbli çantasının ağırlığına baxın. Valideyn güclə daşıyır, uşaq necə daşısın onu?!. Bu qədər yükləmək olmaz uşaqları. Anlamaq istəmirlər ki, təhsilin keyfiyyəti dərs yükünün ağırlığıyla olacaq iş deyil. Belə tədris olmaz. Belə oxumaq olmaz. Uşaqların boş vaxtları ümumiyyətlə qalmır. Uşaq oyunlara, istirahətə, heç yeməyə də vaxt ayıra bilmir. Hamı ayaqüstü,tələm-tələsik yeyir. Məktəbə qaça-qaça gedirlər, məktəbdən evə "sürünə-sürünə". Məktəbdən qayıdan uşaqların sifətinə baxın, necə də yorğun, bitkin görünürlər. Hara gedirik bununla, uşaqlarımızı hara aparırıq. Bütün bunlar uşaqların sağlamlığına ciddi ziyan vurur. Uşaq normal yuxu yatmalıdır. Normal qidalanmalıdır. İstirahət etməli, həyətdə, küçədə oynamalı, dərsdən əlavə, digər məşğələlərdə iştirak etməlidir. Yalnız məktəb proqramı ilə məhdudlaşmaq olmaz. Uşağın mahnı oxumaq, rəqs etmək, rəsm çəkmək, kinoya baxmaq, qaçmaq, atlanıb-düşmək də təbii haqqıdır. İndiki uşaqlar bunlardan məhrum qalıb, çünki məktəb onları o qədər yükləyir ki, əlavə nəyəsə nə vaxtları qalır, nə həvəsləri. Beyin yorulur. Yorğunluğun özü də orqanizmdə ciddi fəsadlar törədir. Qan dövranını pozur. Ürəyin normal ritminə mənfi təsir edir. Daim valideynlərə məsləhət görürük ki, uşaqları təbii qidalara alışdırsınlar, süni qidalardan uzaq dursunlar. Süni qidalar uşağın mədə-bağırsaq sistemini pozur.



**"Bir yandan dərs yükü uşaqların belini büküb, bir yandan da məktəbli çantaları"**

**Pediatr qeyd etdi ki, məktəblilərin təhlükəsizliyi və sağlamlığı baxımından hər bir məktəblinin tibbi vərəsəsi olmalı və məktəbin tibbi otağında saxlanmalıdır:**

- Məktəblərdə hər bir şagirdin xüsusi tibbi vərəqəsi olmalıdır. Orada şagirdin səhhəti barədə, hansı xəstəliyi keçirib və ya hansı xəstəliyi var, hamısı qeyd edilməlidir. Bəlkə şagirdin elə bir xəstəliyi var ki, ona idman hərəkətləri etmək, qaçmaq olmaz? Bunu məktəb rəhbərliyi, müəllimlər bilməli və buna uyğun davranmalıdırlar. Orta məktəblərdə tibbi xidmət lazımi səviyyədə deyil. Bu da önəmli məsələdir. Amma valideynin övladının xəstəliyini, səhhət problemlərini gizlətməsi də bir dərddir, valideynin övladının xəstəliyindən xəbərsiz olması da başqa bir dərddir. Hər yaşın özünün tibbi müayinə müddəti var. 1 yaşa qədər uşaqlar hər ay tibbi müayinədən keçirilməlidir. Sonra müayinə müddəti arasındakı fasilə yavaş-yavaş uzanır. Əvvəlcə 3 aydan bir, sonra 6 aydan bir və nəhayət, ildə 1 dəfə müayinə. Profilaktika baxımından tibbi müayinə vacibdir. Əgər konkret xəstəlik varsa, artıq söhbət müalicədən gedəcək. Ən qınanılası budur ki, valideyn övladını həkim müayinəsinə aparmır. Uşağı apar həkimə, bilinsin ki, nəyi var, nəyi yox. Bəzən maddi imkanı səbəb gətirirlər, amma bu, sadəcə bəhanədir. Poliklinikada heç bir həkim uşağın müayinəsinə görə pul tələb etməz. Uşaqları vaxtlı-vaxtında mütləq həkim müayinəsindən keçirmək lazımdır.

**Məlahət Rzayeva**

# Minlərlə sənədsiz ev var

## Dövlət bilmir vətəndaşlarını hansı ünvanda axtarsın

**"Bizdə vətəndaşların çoxu yaşadığı ünvan üzrə qeydiyyatda deyil".**

Bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Aydın Hüseynov deyib. Deputat bildirib ki, bu da onun səhiyyə və digər xidmətlərdən istifadəsi üçün çətinlik yaradır: "Buna görə də mən təklif edirəm ki, vətəndaşların qeydiyyata düşmə prosesi sadələşdirilsin. Elektron şəkildə vətəndaşların yaşadığı yer üzrə qeydiyyata salınması təmin edilsin. Bu, bu gün çox aktual problemdir və həll edilməlidir".

Qeydiyyata düşmək istəməyənlərin bir qismi bunu aidiyyəti qurumların onlardan dövlət rüsumundan əlavə rüşvət tələb etmələri ilə əlaqələndirirlər.



**"Çox insanlar yaşadığı binada deyil, tamamilə uyğun olmayan yerlərdə, qohumlarının ünvanında qeydiyyatdadırlar"**

**Əmlak eksperti Xəyalə Səfərlinin "Şərq"ə açıqlamasına görə, insanların əksəriyyəti sənədsiz mənzillərdə qeydiyyatsız yaşamaq məcburiyyətindədirlər:** "Əvvəllər sənədi olmayan evlərlə bağlı məhkəmə qaydasında qətnamə qəbul edilirdi və həmin şəxsləri evlərə qeydiyyata alırdılar. 2005-ci ildə Ədliyyə Nazirliyi məhkəmələrə qeyri-rəsmi göstəriş verib ki, belə hallara yol vermək olmaz. 2005-ci ildən sonra əgər yaşadığı daşınmaz əmlakla bağlı sənəd yoxdursa, heç kimi yaşadıqları evlərə qeydiyyata almırlar".

*X.Səfərlinin fikrincə, yeni tikilmiş binaların qeydiyyat sənədinin verilməməsi vətəndaşlar üçün ciddi problem yaradır. Çox insanlar yaşadığı binada deyil, tamamilə uyğun olmayan yerlərdə, qohumlarının ünvanında qeydiyyatdadırlar:* "Ortaya çıxan narahatçılıqlar dövlətin özü üçün də uyğun deyil, öz vətəndaşının elementar problemini həll etməkdə çətinliklər ortaya qoyulur. Prinsipial yanaşılsa, məsələ öz həllini tapar. Onlarla bina var ki, çoxdan, hətta on illərdir orada yaşayış var, amma təhvil götürülməyib və sənəd verilməyib. Məncə, binanın təhvil götürülüb-götürülməməsindən asılı olmayaraq, bu bir mülkiyyətdir və tikilibsə, ona təminat verilməlidir. Bütün vətəndaşların harada axtarılacağı dövlətin problemidir və dövlət də bunu həll etməlidir. İstənilən halda, qanunsuz evlərin tam sənədləşdirilmədiyi təqdirdə, məsələnin həlli mexanizmi görünmür. Ona görə də bu məsələ ancaq qanunsuz tikililərin sənədləşdirilməsindən sonra həll oluna bilər".

**Şeymən**

# Gündə 2 saatdan artıq olmaz

## Sosial şəbəkələr insanlarda təşviş pozuntusu yaradıb



**Sosial şəbəkələr, facebook, instagram insanlarda təşviş pozuntusunu 12 faiz artırıb.**

"Medicina" xəbər verir ki, beynəlxalq elm qrupu ABŞ-ın 775 kollecinin tibbi məlumat bazasını incələyib.

Daha sonra 8000 tələbədən psixi və fiziki sağlamlıq barədə sorğu aparılıb.

Məlum olub ki, sosial şəbəkələrdən çox istifadə edənlərdə depressiya 9%, generalizə olunmuş təşviş həyəcan pozuntusu isə 12% artıb.

Alimlər bildirir ki, buna səbəb uyğun olmayan sosial müqayisə və ümidsizlikdir.

Onlar yeniyetmə və gəncləri sosial şəbəkələrdə gündə 2 saatdan çox olmamaq şərtilə istitadə etməyi tövsiyə edir.

# İctimai nəqliyyatlarda problemlər həll olunmayıb

## Marşrut avtobusları və metro qatarlarındakı sıxlıq pik həddədir

**Paytaxtda tıxac məsələsi ciddi bir problemə çevrilib. Əhalinin mütləq əksəriyyəti tıxacdan əziyyət çəkir. Xüsusilə də biz kənardan Bakıya gələnlərin sayında bunu açıq görürük. Hər gün çox sayda insan Sumqayıta, Sumqayıtdan Bakıya, Masazıra, Xırdalana və digər ərazilərə gedir. Əlbəttə, bu da nəqliyyata öz təsirini göstərir. O baxımdan, tıxac məsələsinin kökündən həll edilməsi üçün çox ciddi təhlil aparılmalıdır. Qərarlar qəbul edilməlidir.**

Bakıda yolların yükünün hədsiz çox olması, alternativlərin azlığı, bəzi hissələrdə, ümumiyyətlə, olmaması uzun müddətdir müzakirə olunur. Bunun üçün yeni nəqliyyat növü kimi, tramvay və trolleybusların bərpasından tutmuş, Bakıda Xəzərin üzərindən körpü tikilməsinə qədər bir çox variant müzakirə olunur.

Asma körpü məsələsi 2010-cu illərdə müzakirə edilib, hətta layihə və smeta da hazırlanıb. Lakin bəlli olmayan səbəblərdən arxivdə qalıb. 2010-cu ildə mətbuat yazırdı ki, bir neçə il sonra dənizin ortası ilə Şıxovdan Zığ qəsəbəsinə qədər uzanacaq körpü tikiləcək.

Milli Məclisin iclasında deputat Elşən Musayev deyib ki, tıxaclarla bağlı problemi həll etmək üçün dənizdən istifadə etmək lazımdır.

Deputat bildirib ki, qardaş Türkiyədə bu təcrübədən artıq istifadə olunub: "Sadəcə, dəniz üzərində bir neçə dayanacaq qurulmalıdır. Bu olsa, Bakı ilə Sumqayıt arasında, o cümlədən Günəşlidə olan tıxaclar da aradan qaldırılar. Eyni zamanda velosiped yollarının çəkilməsi ilə bağlı iş gücləndirilməlidir".



**"Tıxaclar Bakının bəlli küçə və prospektlərində yaşanır, bunları aradan qaldırmaq çətin olmamalıdır, sadəcə peşəkar kadrlardan ibarət komanda formalaşdırmaq lazımdır"**

**Nəqliyyat eksperti Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında deyib ki, Bakı şəhərindəki tıxacların qarşısını almaq üçün geniş və kompleks tədbirlərin keçirilməsinə ehtiyac yoxdur:** "Tıxacların səbəbi həddindən artıq çoxdur, lakin qurumlar problemin həllində istəkli olsalar, qısa müddətdə bunu aradan qaldırmaq mümkündür. Mərhələli addımlar atmaqla da buna nail olmaq olar.

Yol infrastrukturunun yaxşı təşkil olunmaması, vaxtilə avtomobil yollarının, piyada səkilərinin, parklanma yerlərinin zəbt edilib, yerində hündürmərtəbəli binaların tikilməsi, tikilən yaşayış və biznes mərkəzlərinin parklanma yerlərinin olmaması və s. başlıca səbəblərdir. Şəhərsalma və arxitektura qaydalarına görə, hər bir obyektin parklanma yeri olmalıdır. Mövcud pulsuz parklanma yerləri var, amma onların ünvanlarını vətəndaşların çoxu bilmir. Kimlərinsə maraqları naminə bu ünvanlar gizli saxlanılır. Digər tərəfdən, Bakıda avtomobillərin sayı da çoxdur.

Tıxaclar Bakının bəlli bir neçə küçə və prospektlərində yaşanır. Bunun isə bir neçə subyektiv səbəbi var ki, onları aradan qaldırmaq o qədər də çətin məsələ deyil. Sadəcə olaraq işinin peşəkarı olan kadrlardan ibarət komanda formalaşdırmaq lazımdır. Aidiyyəti qurumlar nəqliyyatın hərəkətini düzgün tənzimləsələr, yollarda hərəkət bu qədər bərbad səviyyədə olmaz.

Aidiyyəti qurumlar tıxacların azalması üçün ictimai nəqliyyatlardan istifadənin stimullaşdırılmasını tövsiyə edir. Gözəl təklifdir, amma sual olunur, hansı ictimai nəqliyyatdan istifadəni stimullaşdıracaqlar? Marşrut avtobusları və metro qatarlarındakı sıxlıq pik həddədir. Öncə Bakı metropolitenində stansiyaların sayı, eyni zamanda marşrut avtobuslarının sayı artırılmalıdır. Yaxşı ki, "manatlıq" taksilər var. Onların sayəsində mərkəzdən kənarda yaşayan insanlar səhər işə, axşam işə qayıda bilir. Ümid edirəm ki, ilin sonuna qədər Nazirlər Kabinetinin həyata keçirdiyi layihələrin icrası sürətlənəcək və ictimai nəqliyyat sahəsindəki problemlərin aradan qaldırılmasına nail olacaqlar".

**E.Cəfərov bildirib ki, infrastruktura uyğun olan küçə və prospektlərdə sürətli tramvay xətlərini çəkmək olar. Bu yol isə şəhərin mərkəzində, bulvar yolunda çəkilib dekorativ xarakter daşımamalıdır:** "Bu, rentabelli olmayacaq və sadəcə, Bakıya turistlərin marağını artıracaq. Bu xətlər intensiv hərəkət və sıxlıq olan prospektlərə paralel yollarda çəkilməlidir. Trolleybuslara ehtiyac görmürəm. Bu gün dünyada ekoloji cəhətdən təmiz olan nəqliyyat vasitələrinin sayı onsuz da artır. Yaxın illərdə Bakı şəhərində də elektrik və hidrogenlə işləyən avtomobil və avtobusların sayı artacaq. Elektromobillər olan yerdə də trolleybusları yenidən istifadəyə qaytarmaq və onlar üçün əlavə xətlər çəkməyə ehtiyac yoxdur".

*Alternativ yollarla bağlı verilən təkliflərə gəldikdə isə ekspert deyib ki, dünya təcrübəsində olduğu kimi bir neçə mərtəbəli yollar çəkilməlidir.* Bunun üçün də külli miqdarda maliyyə lazımdır, çünki bu yolların ərsəyə gəlməsi üçün Bakı yenidən sökülüb-tikilməlidir.

Su nəqliyyatından istifadə ehtimalına gəldikdə isə ekspert deyib ki, dəniz taksilərindən istifadə etmək məqsədəuyğun təklifdir. Bakı buxtasında və Sumqayıt ərazisində dəniz taksilərinin istifadəsində heç bir çətinlik yoxdur.

**Velosipeddən ictimai nəqliyyat növü kimi istifadəyə gəldikdə isə E.Cəfərov deyib ki, velosiped Azərbaycanda yalnız idman növü kimi inkişaf edib:** "Velosiped yolları avtomobil yolunun üzərində olmalıdır, piyada səkilərində yox. Velosiped sürücüsü də avtomobil sürücüləri ilə eyni hüquqlara malikdir. Bakı şəhərində velosipedlə işə gedib-gəlmək mümkün deyil. Buna səbəb isə velosiped yollarının piyada səkilərində çəkilməsidir".

**Şeymən Bayramova**

# Ermənistan yenə "dərs" istəyir

## "Ordumuzun şəxsi heyəti zərurət yarandığı halda düşmənin mövqelərini darmadağın edəcək"



**Oktyabrın 20-si saat 16:30-dan saat 17:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəsi pozublar.**

Basarkeçər rayonunun Günəşli və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Daşkəsən rayonunun Astaf və Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Məsələyə münasibət bildirən hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan tərəfinin son aylarda atəşkəsi pozması, Azərbaycanı sentyabr ayında nümayiş etdirdiyi ustad dərslərini yenidən nümayiş etməyə sövq edir:** "Vətən müharibəsində və ondan sonrakı dövrdə baş verən bütün təxribatlar zamanı kifayət qədər ciddi insan və texnika itkisinə məruz qalan Ermənistanın növbəti dəfə mövqelərimizi atəşə tutması, sərhədlərə qoşun cəmləməsi sağlam məntiqə sığmır. Rəsmi İrəvanın bu fəaliyyətləri, Avropa İttifaqının missiyasına münaqişənin başa çatmadığı barədə müəyyən mesajlar vermək məqsədi daşıyır. Əzilmiş Ermənistanın belə bir zəif potensial ilə, Azərbaycana qarşı təxribatlar həyata keçirməsi, onların ərazi iddialarının və revanş niyyətlərinin yenidən alovlandığını göstərir. Lakin Ermənistanın hansı məqsədlə və kimin göstərişi ilə Azərbaycan Ordusunun mövqelərinə atəş açması bizi maraqlandırmır. Hesab edirəm ki, ordumuzun şəxsi heyəti zərurət yarandığı halda düşmənin mövqelərini darmadağın edəcək və həmin ərazilərdə Azərbaycan bayrağını dalğalandıracaq".

**Nihat**

# Liz Trass ən layiqli idi

## Onun istefasından sonra heç bir namizədin nüfuzu yüksək görsənmir

**Böyük Britaniyanın Baş naziri Liz Trass istefa verib. Trass, həmçinin bildirib ki, Mühafizəkarlar Partiyasının lideri postundan da istefa verir. 47 yaşlı Trass yeni Baş nazir seçilənə qədər səlahiyyətlərini icra etməyə davam edəcək. Yeni Baş nazirin isə bu həftə seçiləcəyi bildirilir.**

Xatırladaq ki, Böyük Britaniyanın Xarici işlər naziri olmuş Liz Trass cari ilin sentyabrın 6-sı Mühafizəkarlar Partiyasının lideri və ölkənin baş naziri seçilmişdi. O, Britaniya tarixində bu vəzifəni ən az müddət icra edən şəxs olub.

Qeyd edək ki, Trassın 45 gün əvvəl vəzifəsinin icrasına başlamasına baxmayaraq, Britaniyada artan iqtisadi problemlər onun reytinqinin kəskin şəkildə enməsinə səbəb olub. Siyasətçinin təqdim etdiyi iqtisadi plan hökumət üzvləri tərəfindən müsbət qarşılanmayıb.

Bir müddət əvvəl britaniyalı deputatlar Trassı istefaya səsləsələr də, o, istefa verməyəcəyini açıqlamışdı.

Sosial mediada isə Boris Consonun yenidən baş nazir postuna qayıdacağı ilə bağlı fikirlər dolaşır.



**İstefa məsələsinin Britaniyadakı Mühafizəkarlar Partiyasının arasındakı fikir ayrılığından sonra olduğunu deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə bildirib ki, onlar hakimiyyətə gəlməyə hazırlıqlı deyildilər:** "Liz Trass vəzifəyə gələn gün ölkədəki neft və qaz yataqlarının işlənməsi ilə bağlı sərəncam verdi. Halbuki, həmin günlərdə Kraliçanın dəfn mərasimi keçirilirdi. Bu mərasimdən istifadə edərək böyük neft maqnatlarının tələblərinə uyğun olaraq gizlin və tələsik qərarın verilməsi Britaniya cəmiyyətində xoş qarşılanmadı. Xanım Liz daha sonra isə iqtisadi qərarlar qəbul etdi. Bu qərarlar isə Trampın qərarlarına bənzəyirdi.

Belə ki, o, bununla kiçik və orta biznesin deyil, böyük sahibkarların vergilərini aşağı salmağa çalışdı. Bu qərar isə büdcə kəsiri yaratdı və onların bunu qarşılamaqla bağlı heç bir planı yox idi. Nəticədə də ölkənin həm funt-sterlinqi dəyərini itirdi, həm də birjaları alt-üst oldu. Bu hadisədən sonra isə qərarı geri çəkərək günahı iqtisadiyyat nazirinin üzərinə yıxdılar və onun istefasını tələb etdilər.

Bu isə baş naziri məsuliyyətdən azad etmədi. Apardığı siyasət baş nazirin sadəcə böyük biznesə lobbiçilik etdiyini, əslində isə ölkə iqtisadiyyatından və nələrin baş verəcəyi barədə fikrinin olmadığını göstərdi. O, bu qərarlarla özünün sonunu hazırladı və İngiltərə tarixində ən tez istefa verən nazir oldu.

**Analitik qeyd edib ki, qarşıdan gələn seçkilərdə Boris Consonun şanslarını yüksək qiymətləndirmir:** "Amma bir məsələ var ki, Britaniyada artıq konservativ qaydada normal namizəd qalmayıb. Sonuncu gözə çarpan namizəd Liz Trass idi. Onun istefasından sonra isə heç bir namizədin nüfuzu yüksək görsənmir. Bu nüansları nəzərə alsaq, B.Conson yenidən səhnəyə atılmaq istəyə bilər. Ümumiyyətlə isə bütün proseslərin Rusiya ilə bağlı olduğunu düşünür və rus kəşfiyyatının bu işdə müəyyən rolu olduğuna inanıram.

Çünki Kremlin əsas hədəfi Avropa ölkələrində sağ partiyaların əli ilə siyasi qeyri-stabillik yaradıb, onların başını qatmaqdır. Bununla da onlar bu ölkələri Ukrayna cəbhəsindən geri çəkilməyə məcbur edirlər. Ukraynanın tərəfində olan Conson və Trassın sıradan çıxarılması, dərinlərdə rus xarici kəşfiyyatının təsiri ola biləcəyi ehtimalını üzə çıxarır".

**Nihat Müzəffər**

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet
22 oktyabr 2022-ci il (şənbə)


# “Məktəblərdə dini təbliğatın aparılması yolverilməzdir”

## Elçin Əfəndi: “Valideynlər belə hallarla qarşılaşanda müvafiq dövlət orqanlarına müraciət ünvanlanmalıdır”



**Yevlaxda şagirdlərinə ”mərsiyə” ifa etdirən müəllim haqqında araşdırma başlanılıb.**

Bir müddət öncə Yevlax şəhər Sahib Əliyev adına 1 nömrəli məktəbin riyaziyyat müəllimi Nailə Babayevanın şagirdlərinə dərs zamanı İmam Zamana həsr olunan ”Salam Fərmandeh” (Salam komandir) mahnısını ifa etdirmişdi.

Məsələ ilə bağlı Elm və Təhsil Nazirliyi, eləcə də müvafiq regional təhsil şöbəsi dini görüşlərini şagirdlər arasında təbliğ edən pedaqoqa sonuncu xəbərdarlıqla şiddətli töhmət verilmişdi.

Müəllim verilmiş cəzadan nəticə çıxarmayıb.

4 ay səssizliyə qapanan Nailə Babayeva yenidən dini görüşlərinin təbliğatı ilə fəaliyyətə başlayıb. Bu dəfə o, dövlətçiliyə xələl gətirən təhlükəli paylaşımı ilə gündəmə gəlib. ”Riyaziyat müəllimləri”, ”Prezidentə dəstək”, ”Yevlax məktəb” kimi qruplarda məktəbə, təhsilə aid olmayan mövzuların, konkret olaraq prezidentin Mossad tərəfindən qorunduğunun, sionist olmasının propaqandasını aparır.

***"Pedaqoq hansısa dini cərəyanı yaymağa çalışırsa, dərhal onun barəsində tədbir görülməlidir. Fəaliyyətinə xitam verilməlidir"***

**Məktəbdə yaşanan hadisə barədə ”Şərq”ə danışan təhsil eksperti Elçin Əfəndinin qənaətincə, məktəblərdə dini təbliğatın aparılması yolverilməzdir:**

”Azərbaycan Respublikasının Konstitusiyasına görə din dövlətdən ayrıdır. Hər kəsin dini etiqad azadlığı var. Lakin o demək deyil ki, kimsə başqası üzərində hegemonluğa, təbliğatın bərqərar olmasına imkan yaratmalıdır. Təhsil müəssisəsində din təbliğ edilməməlidir. Həyat bilgisi fənnində dinlər haqqında nəzəri məlumat çatdırılır. Pedaqoq hansısa dini cərəyanı yaymağa çalışırsa, dərhal onun barəsində tədbir görülməlidir. Fəaliyyətinə xitam verilməlidir. Valideyn övladını məktəbə elm öyrənməyə göndərir. Dini təhsil almaq niyyəti olsa idi, mədrəsə kimi din təhsili verən istiqamətlərə yönəldərdilər. Biz dünyəvi dövlətik. Müxtəlif dinlərə hörmətlə yanaşırıq. Ölkəmizdə İlahiyyat Universiteti də var. Dini təhsil almaq istəyənlər ora daxil ola bilər, şəxsi seçimdir. Məktəbyaşlı uşaqlara isə kimsə dini mövqeyini müəyyənləşdirməsi üçün təsir edə bilməz. Valideynlər belə hallarla qarşılaşanda müvafiq dövlət orqanlarına müraciət ünvanlanmalıdır”.

**Aygün Tahir**



## Qazaxıstanda "Turanın səsi" beynəlxalq mahnı müsabiqəsi keçirilib

**Qazaxıstanın Türküstan vilayətində qazax mahnılarının Voice of Turan (Turanın səsi) beynəlxalq müsabiqəsi keçirilib.**

Azərtac Kazinform agentliyinə istinadla xəbər verir ki, mahnı müsabiqəsi Qazaxıstan Respublikasının Milli bayramı - Respublika Gününə həsr olunub. İki gün ərzində dünyanın müxtəlif ölkələrindən gəlmiş iştirakçılar qazax mahnılarını ifa ediblər.

Münsiflər heyətinin qərarına əsasən, Gürcüstandan olan Tatyana Kobaladze Qran-Prinin sahibi olub. Birinci yeri Tatarıstanlı İlgiz Şayxraziyev, ikinci yeri serb müğənni Stefan Zdravkoviç və polşalı müğənni Mixal Kaçmarek tutublar. Üçüncü yerə Katarina Bogiceviç (Monteneqro), Kristina Dankova (Bolqarıstan), Navruza Maxamadjanova (Özbəkistan) layiq görülüb.

*Qeyd edək ki, bundan əvvəl müsabiqə iki dəfə onlayn rejimdə keçirilib. 2020-ci ildə Qran-Pri mükafatını moldovalı ifaçı, 2021-ci ildə isə buryatiyalı müğənni qazanıb.*



# İrəvana təzyiq göstərən yoxdur

## Təxribatlar beynəlxalq güclərin gözü qarşısında baş verir

**”Ermənistanın təxribatları davam edəcək. Azərbaycan unutmamalıdır ki, söhbət düşmən ölkədən gedir”.**

**Bu sözləri ”Şərq”ə hərbi ekspert Üzeyir Cəfərov deyib. Onun sözlərinə görə, ərazilərimiz 44 günlük savaşın pik nöqtəsi hesab edilən noyabr ayına qədər davamlı şəkildə Ermənistanın atəşinə məruz qalacaq:**

”Azərbaycanın Silahlı Qüvvələri qarşı tərəfin bütün təxribatlarına hazırdır. Ordumuzun qorxmaz iradəsi, bacarığı hesabına düşmənin törədə biləcəyi istənilən provokasiyanın qarşısı vaxtında və sərt şəkildə alınacaq. Eyni zamanda igid əsgərlərimiz düşmənin ritorikasını aşağı salmaq üçün lazım olan qədər əks addımlar atacaqlar. Buna heç kimin şübhəsi olmasın. Baş verənlər mənim üçün hər hansı bir təəccüb doğurmur.

Guya Ermənistan ərazisinə beynəlxalq missiya göndərilib. Amma təxribatlar beynəlxalq güclərin gözü qarşısında yenə də davam etməkdədir. Avropa İttifaqının müşahidə missiyası təəssüf ki, hələ də rəsmi İrəvanın məlum fitnələrini görməzdən gəlir.

Lazımi qərarları vermir, tədbirləri həyata keçirmirlər. Ümid edirəm ki, proses uzun zaman çəkməyəcək. Ermənistan sonda məcbur qalıb, Azərbaycanın həm ərazi bütövlüyü ilə bağlı indiyə qədər dediyi, həm də Praqada səsləndirdiyi fikirləri artıq sənəddə də öz imzası ilə təsdiq edəcək.

Nəhayət, düşmən ölkə başa düşəcək ki, bölgədə sülhün və əmin-amanlığın bərpa olunması üçün Azərbaycan və qardaş Türkiyə ilə bir araya gəlməlidir. Doğrudürüst qərarlar yalnız rəsmi Bakı və ya rəsmi Ankaranın deyil, eyni zamanda Ermənistanın da müəyyən maraqlarına xidmət edə bilər”.

Qeyd edək ki, Ermənistan Silahlı Qüvvələrinin bölmələri oktyabrın 20-si gecə saatlarında Daşkəsən rayonunun Astaf, Kəlbəcər rayonunun Zəylik və Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan fasilələrlə atəşə tutub.

**Sücayət Mehti**

# Sirop və maye dərmanların satışı dayandırılır

## Bəzi öskürək və soyuqdəymə dərmanları kəskin böyrək zədələnməsinə gətirib çıxarır

**İndoneziyada 100-ə yaxın uşağın ölümündən sonra bütün sirop və maye dərmanların satışı dayandırılıb. Belə ki, yerli səhiyyə qurumu bəzi öskürək və soyuqdəymə dərmanlarının kəskin böyrək zədələnməsinə və son bir ildə 99 uşağın ölümünə səbəb olduğunu bildiriblər.**



Məlumata görə, hazırda dərmanlara görə 200 uşaqda böyrək zədələnməsi hadisəsi aşkar edilib. Onların əksəriyyətinin yaşı beşdən aşağıdır.

Xatırladaq ki, bir müddət əvvəl Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 70-ə yaxın uşağın ölümünə səbəb olan dörd öskürək və soyuqdəymə siropu (”prometazin” oral məhlulu, uşaqlar üçün ”Kofexmalin” və ”Makoff” öskürək siropları, həmçinin soyuqdəyməyə qarşı ”Magrip N” siropu) ilə bağlı xəbərdarlıq edib. Hindistan əczaçılıq şirkəti tərəfindən istehsal edilən sözügedən preparatların tərkibində dietilen qlikol və etilen qlikolun qəbuledilməz səviyyədə olduğunu bildirib. ÜST rəsmiləri bildiriblər ki, bu siroplar potensial olaraq kəskin böyrək zədələnməsinə səbəb olur. İndoneziya Səhiyyə Nazirliyinin açıqlamasında, ölkədə istifadə edilən bəzi maye dərmanlarda eyni kimyəvi komponentlərin istifadə edildiyi bildirilib: ”Beş yaşından kiçik uşaqlara verilən siropların bəzilərinin tərkibində olması lazım olduğundan daha çox dietilen qlikol və etilen qlikol olduğu ortaya çıxıb”, - deyə Səhiyyə Nazirliyindən bildirilib. Lakin bu zəhərli preparatların neçə nəfərə təsir etdiyi açıqlanmayıb. Yerli mütəxəssislər İndoneziyada faktiki ölüm nisbətinin daha yüksək ola biləcəyini bildirib. İndoneziya hökuməti uşaqlarda xəstəlik və ölümə səbəb olan siropların növlərini və markalarını hələ açıqlamayıblar. Hazırda ölkədə bütün sirop və maye dərmanların satışı dayandırılıb.

***Pediatr Reyhan Bayramova: "12 yaşa qədər uşaqlarda kombinə olunmuş qızdırma salan preparatlardan istifadə etmək məsləhət deyil"***

**Pediatr Reyhan Bayramova**

**”Şərq”ə açıqlamasında deyib ki, preparatların dozasına və qəbul qaydasına diqqət etmək lazımdır:** ”12 yaşa qədər uşaqlarda kombinə olunmuş qızdırma salan preparatlardan istifadə etmək məsləhət deyil. Bu yaşda olan uşaqların qızdırmasının salınması üçün yalnız parasetamol və ibuprofen tərkibli preparatlar istifadə edilməlidir. Uşaqlar üçün aspirin (asetil salisil turşusu) preparatı ehtiyatla istifadə edilməlidir”.

**Öskürək siroplarının zərərinə gəldikdə isə pediatr deyib ki, dərman preparatları ilə bağlı məsələ tez-tez yenilənir:**

”Əvvəllər yeni istifadəyə verilən dərmanlar haqqında da zərərlidir, öldürür kimi ifadələr deyilirdi. Halbuki neçə nəsil uşaqları o dərmanlarla böyüdü. Bir müddət sonra isə həmin dərmanlar şəbəkədən çıxarılıb, zərərli olduğunu bəyan etdilər. Valideynlər də haqlı olaraq çaş-baş qalırlar ki, axı o vaxt bizə bu dərmanların yaxşı olduğunu deyirdilər. Deməyim odur ki, təbabət tez-tez dəyişən bir sahədir. Yeni icadlar olur. İctimaiyyətə məlumat verəndə gərək çox ehtiyatlı olaq. Həm həkimlər, həm də əczaçı terapiya ilə məşğul olan laboratoriyalar, elmi mərkəzlər, institutlar diqqətli olmalıdırlar”.

**Şəymən**

# Şagirdlər istədiyi geyimdə dərsə gedə bilməzlər

## "Məktəblərlə bağlı hazırlanan qaydaları lağlağıya çevirmək təəssüf doğurur"



**Elm və Təhsil Nazirliyi tərəfindən "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" və "Valideyn-məktəb münasibətlərinin tənzimlənməsi üzrə təlimat" hazırlanıb. Nəticədə ümumi təhsil müəssisələrindən: çox dar geyim, hündürdaban ayaqqabı, dizdən yuxarı olan ətək, zinət əşyası və bahalı saat kimi aksessuarlar, qeyri-adi saç düzümü və saç rəngi, uzun və rəngli dırnaqlar, makiyaj, saqqal və s. qeyd olunanlarla bağlı daxili qaydalar tərtib etmələri tələb olunub.**

Yeni qaydalarda öz əksini tapan şagirdlərin saç rəngini dəyişməsi, qısa və dar geyinməsi, eyni zamanda, saqqal saxlamasına qoyulan qadağalar cəmiyyət tərəfindən heç də birmənalı qarşılanmayıb. Məsələ əksər sosial şəbəkədə bir çox istifadəçilər tərəfindən gülüş obyektinə çevrilib. İstifadəçilər bunlardan daha çox ölkədə təhsilin keyfiyyətini artırılmasına ehtiyac duyulduğunu dilə gətiriblər.

**Fəlsəfə doktoru Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov sözügedən qaydalarla bağlı "Şərq"ə danışarkən bildirib ki, bu normaların cəmiyyətdə gedən müzakirəsindən xəbərdardır və insanların belə ciddi mövzuları lağlağıya çevirməsindən təəssüflənir:** "Cəmiyyətin bu cür məsələlərə aqressiya nümayiş etdirməyindən, ironiya ortaya qoymağından olduqca narahatam. Nəyəsə qarşı bir münasibəti ortaya qoyanda, orda tənqid etdiyimiz məqamı dərk etməliyik. Əlbəttə ki, ictimai rəyin nəzərə alınması olduqca vacibdir. Amma göstərilən münasibət savadlı arqumentlərə söykənməlidir.

Məsələn, bizim valideynlər qız övladlarının məktəbə açıq-saçıq geyimdə, qısa ətəkdə gəlməyini qəbul edərmi? Mən şəxsən etmirəm. Bunu geri düşüncəli olmadığın əlaməti kimi də qəbul etmirəm. Eləcə də oğlanların məktəbə istənilən saç düzümündə gəlməsi düzgün deyil. Hələ ziynət əşyaları ilə təhsil ocağına daxil olan müəllimləri demirəm. Bu, sadəcə olaraq bayağı zadəganlığın əlamətidir. İnkişaf etmiş dünya ölkələri bunlardan çoxdan imtina edib. Fikirləşirəm ki, məktəblərdə milli dəyərlər də qorumalıdır. Yeni qaydalar bizə bu işdə yardımçı olacaq".

*İ.Orucov vurğulayıb ki, indi bütünlükdə hər kəs həmin qaydaların hazırlanmasına dəstək verməlidir:* "Məktəb ictimai yerdir. Təlim-tərbiyə müəssisəsidir. Tədrislə bərabər yeni nəsil burda tərbiyə olunur. Tərbiyənin də aşılanması üçün şagirdlərdə müəyyən davranışlar formalaşdırmaq lazımdır. Bu, məktəbli geyimindən tutmuş, məktəblinin zahiri görkəminin müəyyən normalarla tənzimlənməsinə qədər olan bütün məsələləri özündə birləşdirir. Şagirdlərin saç düzümü, geyimi ilə bağlı standartlar mütləqdir.

Eyni zamanda bu normalar müəllimlər üçün olmalıdır. Müəllim öz geyimi ilə cəmiyyətə nümunə olmalıdır. Şagirdlərin istədiyi geyimdə məktəbə gəlməsi yolverilməzdir. Dünyanın fərqli, elm və təhsil səviyyəsi yüksək olan ölkələrində səfərdə olmuşam. Ordakı məktəblərlə yaxından tanışam. Birmənalı olaraq deyə bilərəm ki, həmin məktəblərin hər birinin öz qaydaları var. Özəl, bələdiyyə, dövlət və s. hamısının öz normaları olur. Bu normalar şagirdlərdə davranış mədəniyyətinin formalaşmasına xidmət edir".

İctimai Şuranın üzvü son olaraq qeyd edib ki, əgər insanlarımız məktəblərdəki təhsilin keyfiyyətindən narazıdırlarsa, bununla bağlı da öz sağlam və savadlı mövqelərini ortaya qoyub, təkliflər irəli sürə bilərlər.

**Günəş Mərd**



# "Göyərçinləri peçenye kimi yeyirlər"

## Qatil qağayıların qarşısı alınmaz hala gəlib

*(Əvvəli səh: 16-da)*

**Qağayı populyasiyasının artmasına qarşı çox çarə olmadığını deyən Kaya, "Təbiət özünü kompensasiya edir.**

Göyərçinlər tamamilə yoxa çıxmır. Böyük fəlakətlər, problemlər var, təbiət bunların hamısını özü kompensasiya edəcək. Ən böyük müdaxilə insan müdaxiləsidir. İnsan müdaxiləsi olarsa, təbiət məhv olar. Amma dağıntı, təbiətdə öz-özünə baş verən fəlakətlər olmasa təbiət öz-özünü kompensasiya edər. Qağayıları da başdan ayağa qırmaq olmaz. Onlar da təbiətin bir halqasıdır. O halqadan üzük çıxarsan təbiətdə balanssızlıq olar. Gəlin təbiəti öz-özünə buraxaq. Çünki təbiətə ehtiyacımız var. Təbiət olmasaydı, biz də mövcud olmazdıq. Sağlam həyat üçün sağlam təbiət vacibdir" deyə bildirir. İllərdir Səlimiyə Məscidi meydanında bir çox göyərçin növlərinin olduğunu bildirən Aydoğan Bilgen isə məscidlərlə göyərçinlər arasındakı bağa diqqət çəkib və bu ifadələrdən istifadə edib: "Göyərçinsiz Səlimiyə yoxdur. Məscidlər göyərçinlərin olduğu yerlərdədir. Amma bu qədər qağayılar hardan gəldi, bilinmir. Qağayı suda yaşayan quşdur. Bütün Edirnəni işğal edib. Bütün binalarda var. İnsan yata bilmir, narahat olur. Daha çox göyərçin və ququ dediyimiz quşlara hücum edib onları bir-bir məhv edirlər. Göyərçinləri peçenye kimi yeyirlər. Əvvəllər bütün məscidlər, istər Köhnə məscid olsun, göyərçinlərlə dolu idi. O, məscidin maskotu idi. Təəssüf ki, indi azalıb. Bunun qarşısı alınmalıdır".

**Turan**

# "Freedom House" yenə qərəz nümayiş etdirdi

**"Freedom House" ("Azadlıq Evi") internet azadlığı ilə bağlı dünyanın 70 ölkəsini əhatə edən növbəti hesabatını açıqlayıb. Azərbaycan 38 balla dünyada azad olmayan ölkələr sırasına daxil edilib. "Freedom House"un hesabatına görə, Azərbaycanın internet azadlığına görə vəziyyəti ötən illə müqayisədə müsbətə doğru dəyişsə də, yenə də interneti "Qeyri azad" ölkələr sırasına daxil edilib.**

Diqqətçəkən məqam isə odur ki, Azərbaycan cəmi 1-2 bal artıq toplasa interneti daha yaxşı olan kateqoriyaya, "Qismən azad" ölkələr siyahısına düşə bilərdi.

"Freedom House" internet azadlığı reytinqini keyfiyyətli internetə əlçatanlıq və məhdudiyyətlərin olması, müstəqil tənzimləyici qurumun fəaliyyəti, internet trafikin, saytların və kontentin bloklanmasını, hüquqi bazanın mövcudluğu, internet istifadəçilərin hüquqlarının qorunması və izlənilməsi, internet resurslara kiber hücumlar və s. bu tip məsələləri dəyərləndirməklə müəyyən edir.

**Hesabatda Azərbaycanla bağlı təqdim edilən arayışı oxuduğunu vurğulayan Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün "Şərq"ə açıqlamasına görə, hesabatda reallığı əks etdirən, həqiqətə uyğun olmayan və açıq-aşkar ikili yanaşma tətbiq olunan hissələr var:** "Hesabata görə, son bir ildə internet azadlığı 28 ölkədə pisləşib, 26 ölkədə yaxşılaşıb. Rusiya internet azadlığını daha çox məhdudlaşdıran ölkə olub. Düşünürəm ki, Azərbaycan internetində müəyyən problemlər olsa da "Freedom House" təşkilatının bizi interneti "Azad olmayan" ölkələr sırasında daxil etməsi, yumşaq desəm, ədalətli deyil.




**Osman Gündüz:** "Bu təşkilatın metodologiyasında qüsurlar var"

**Novella Cəfəroğlu:** "Bizim ölkəyə gəlsinlər, görüşsünlər, internetimizə, yazışmalarımıza baxsınlar"

Qurum Azərbaycanı "azad olmayan" ölkə sırasına daxil edib, amma "Qismən azad" olan ölkələr sırasına baxanda görmək olar ki, ya açıq-aşkar "Freedom House" qərəzlidir, ya da metodologiyasında qüsurlar var. Azərbaycandan qat-qat pis vəziyyətdə olan, inkişaf etməyən, mühafizəkar internet mühiti olan ölkələr "Qismən azad" ölkələr sırasına daxil edilib.

Bu isə onu göstərir ki, son illərdə olduğu kimi, bu il də adıçəkilən qurum Azərbaycana qarşı ədalətli mövqe sərgiləmir, ikili yanaşmalara yol verir".

Bununla belə ekspertin fikrincə, hesabatda Azərbaycan interneti ilə bağlı bir çox diqqət yetirməli, tənqidi məqamlar var ki, reallığı əks etdirir, onların araşdırılması və aradan qaldırılması vacibdir: "Fikrimcə, səlahiyyətli qurumlarımızın Hesabatı incələməsi, qeyd olunan qüsurların təhlil edilməsi, qərəzli yanaşmalarla bağlı quruma müraciətlər edilməsi, əməkdaşlıq imkanlarının axtarılması daha doğru olardı".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu həmin təşkilatları ölkəmizə dəvət edib:** "Hüquq müdafiəçisi kimi deyim ki, onlardan Bakıya gəlmələrini xahiş edirəm, gəlsinlər, görüşsünlər, internetimizə, yazışmalarımıza baxsınlar. Onda nə qədər qərəzli olduqlarını anlayacaqlar. Biz də onları ermənilərin dağıtdığı Ağdam və digər ərazilərimizə apararıq. Demokratlar hər yerə Ukraynanı car çəkirlər, düz də edirlər, amma nəzərə alaq ki, son 30 ildə bir dəfə də bizə dəstək olmayıblar. Bircə gəlsinlər, nə istəyirlərsə göstərək. İnsan haqlarından tutmuş digər məsələlərə qədər izah edə bilərik".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olu-

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3007





# İngilis müğənni paylaşması ilə gündəm oldu

Məşhur mahnısını Türkiyədə zibil qabının üzərinə yazdı

**2013-cü ildə işıq üzü görən "Another Love" ("Başqa bir sevgi") mahnısı hazırda qızıl dövrünü yaşayır.**

İngilis müğənni Tom Odellin məşhur mahnısı "TikTok" və "İnstagram Reels" videolarında istifadəsi ilə 9 ildən sonra musiqi siyahılarına qayıtmağı bacarıb.

Bir müddət əvvəl sosial şəbəkələrdə yayılan mahnı ilə bağlı öz hesabında paylaşım edən dünya şöhrətli müğənni üzərinə "Another Love" yazılmış zibil qabını paylaşıb.

Odellin pərəstişkarlarının diqqətini çəkən detal isə zibil qabının üzərində həm də Ümraniye Bələdiyyəsinin yazılmasıdır. Müğənninin Türkiyədə zibil qabı paylaşdığını anlayan türkiyəli izləyicilər onun paylaşımının altına minlərlə şərh yazıblar.

**Turan**

# Yeni ildə 255 min qazanacaq



**Türkiyəli müğənni Hadisə Yeni ildə Kiprdə konsert verəcək.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, sənətçi bunun müqabilində 150 min dollar (təxminən 255 min manat) məvacib alacaq.**

***Qeyd edək ki, Tarkan da Yeni il axşamı Kiprdə konsert verəcək və 458 min manat qazanacaq.***

# Gülşənlə bağlı məhkəmə qərarı yenidən dəyişdi



**Ev dustaqlığına buraxılan müğənni Gülşən Çolakoğlunun növbəti məhkəməsi yekunlaşıb.**

**Axşam.az xəbər verir ki, hakimin qərarına əsasən, ifaçının üzərinə qoyulan məhkəmə nəzarəti tədbirinin ləğv edilməsinə qərar verilib. Lakin onun ölkə xaricinə çıxışına qoyulan qadağanın isə davam edəcək.**

**Qeyd edək ki, Gülşən konsertlərindən birində dediyi "İmam Hatipdə oxuyub, əxlaqsızlığı oradan gəlir" sözlərinə görə həbs olunub. Onun bu ifadəsi həmin liseydə oxuyanları və məzunları, eləcə də dindarları qəzəbləndirib. Gülşən özünü günahkar hesab etməyib və həbs olunmadan mühakimə olunmaq istədiyini bildirib. Daha sonra sənətçi ev həbsinə buraxılıb.**

# Zürafə bir yaşlı qızı tapdalayıb öldürdü

## 25 yaşlı qadını isə şikəst edib



**Cənubi Afrikada zürafə 25 yaşlı qadını şikəst edib və bir yaşlı uşağını öldürüb.**

**Milli.Az bildirir ki, bu barədə "The Mirror" məlumat yayıb.**

**Çərşənbə günü, oktyabrın 19-da Durban şəhəri yaxınlığındakı "Kuleni Game Park"a gedən ana və qızı heyvan hücumuna məruz qalıb. Zürafə 16 aylıq körpəni və anasını tapdalayıb, bundan sonra zərərçəkənlər xəstəxanaya aparılıb. Həkimlərin səyinə baxmayaraq, qızı xilas etmək mümkün olmayıb. Ağır xəsarət alan qadın xəstəxanaya yerləşdirilib, vəziyyəti ağırdır. Polis uşağın ölümü ilə bağlı araşdırmalara başlayıb. Zürafələrin hündürlüyü altı metrə, çəkisi isə 1,2 tona çata bilər. Hücum edərkən, heyvan yalnız bir dırnaq zərbəsi ilə insanı ölümcül yaralaya bilər.**



# "Göyərçinləri peçenye kimi yeyirlər"

## Qatil qağayıların qarşısı alınmaz hala gəlib

**Türkiyənin Edirnə bölgəsində son vaxtlar göyərçinlərin və digər quşların sayı azalıb. "Şərq" türk mediasına istinadən xəbər verir ki, Meriç və Tunca çaylarının mərkəzinə yaxın olan şəhərdə yeni məskən salan qağayılar göyərçinlərlə qidalanır. Xüsusilə Səlimiyə məscidi ətrafında və şəhər mərkəzində sürətlə azalan göyərçinlər yerini qağayılara buraxıb.**

Trakya Universiteti Biologiya Bölümünün rəhbəri Mustafa Kaya deyir ki, son illərdə şəhərdə qağayıların sayı artıb:

"Zibilliklərdə, Meriç çayı və Tunca çayının ətrafında məskən salıblar. Həddən artıq çoxalırlar. Onlar sadəcə balıqları



deyil, digər quşları da yeyirlər. Bunların başında "ququ" kimi tanınan göyərçinlər gəlir. Bunlar qağayıların əsas qidası hesab olunur. Çünki göyərçinlərin müdafiəsiz bir yuvaları var, onlara çox asanlıqla çata bilirlər".

**Qağayıların sayının ildən-ilə artdığını bildirən Kaya əlavə edir:** "Təkcə Səlimiyə bölgəsində deməyək. Evlərin çardaqlarında yuva qurduqları üçün Edirnənin hər yerinə yayılıblar. Həm şəhər göyərçinləri, həm də ququ adlanan göyərçinlər çox həssas quşlardır. Sürətli uçan, özünümüdafiə quşları olmadığı üçün onları tez ovlayırlar. Yuvaları çox həssas və sadə olduğundan, balalarını da yeyirlər. Onlar ətraflarındakı istənilən zəif quşa çatırlar".

*(Davamı səh: 15-də)*

**Turan**



# Ən çox sevilən və nifrət edilən milyarderlər...

## Türkiyədə də ən nifrət edilən milyarder Donald Trampdır

**Dünyanın ən sevilən və nifrət edilən milyarderləri müəyyənləşib. Siyahı tvitlər və bir araşdırmanın süni intellektindən istifadə edilməklə hazırlanıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, biznes maliyyə və kredit araşdırması saytı dünyanın hər yerindən gələn tvitlər əsasında ən çox sevilən və nifrət edilən milyarderləri toplayıb.

Tədqiqat aparılarkən milyarderlərdən bəhs edən və yerlərə görə sıralanan geotagged tvitlər toplanaraq bir araya gətirilib.

Tvitlərdəki hər sözün müsbət və ya mənfi olduğunu müəyyən etmək üçün süni intellektdən istifadə edilib və siyahı yaradılıb.

**1. Bill Geyts**

O, 37 ölkədə ən çox sevilən milyarder kimi seçilib.

**2. Elon Mask**

"Tesla"nın baş direktoru 27 ölkədə sevilir.

**3. Ceff Bezos**

"Amazon"un qurucusu, 15 ölkədə sevilir.

**3. Sheryl Sandberg**

"Facebook"un baş direktoru Sandberg 12 ölkədə sevilir.

**5. Riçard Branson**

İngilis investor 5 ölkədə məşhur bir ad oldu.

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp ən çox nifrət edilən milyarderlər siyahısında birinci yerdədir.**

Trampa 84 ölkədə nifrət edilir.

**2. Jeff Bezos**

Amerikalı investor 15 ölkədə sevilsə də, 6 ölkədə ən çox nifrət edilən milyarder olub.

**3. Rupert Merdok**

Media maqnatı Merdok 4 ölkədə nifrət edilən addır.

**4. Mark Zukerberq**

"Facebook"un qurucusu Zukerberq 4 ölkədə mənfur ad halına gəlib.

**5. Bill Geyts**

Ən çox sevilən milyarder olsa da, "Microsoft"un qurucusu 3 ölkədə nifrət edilənlər siyahısında ilk beşliyə daxildir.

***Türkiyədə vəziyyət necədir?***

Araşdırmaya görə, Türkiyədə ən məşhur milyarder olmağı bacaran ad Mark Zukerberq olub.

Bütün dünyada olduğu kimi, Türkiyədə də ən nifrət edilən milyarder Donald Trampdır.

**Turan**

# Yanma, qızartı və ya saralma varsa...

## Göz narahatlığı 5 ciddi xəstəliyin əlaməti ola bilər



**Gözlər ruhun güzgüsüdür deyirlər. Bəs, gözlərinizin fərqində olmadığı bir çox xəstəliklərin xəbərçisi olduğunu bilirdinizmi?**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, əgər gözünüzdə yanma, qızartı və ya saralma varsa, problemin gözlərinizdən qaynaqlandığını düşünə bilərsiniz. Bununla belə, mütəxəssislər bəzi xəstəliklərin ilk əlamətlərini gözlərdə aşkar edə biləcəyinizi iddia edirlər.

Doktor Rachel Vard deyir ki, gözlərinizdə görünən bəzi simptomlar 5 ciddi vəziyyətin əlaməti ola bilər:

**Ağ və ya sarı şişlik**

Əgər göz qapaqlarınızda və ya burnunuzun ətrafında ağ və ya sarı ləkələr varsa, demək sizdə xolesterol yüksəkdir. Əgər belə simptomları aşkarlayıbsınızsa, xolesterolunuzu mütləq yoxlatmaqq lazımdır.

**Sarı gözlər**

Gözlərinizin ağları sarıya çevrilirsə, qanınızda yüksək bilirubinin olduğunu göstərir. Sarılığın əlaməti ola bilən sarı gözlər ağciyər infeksiyası, öd daşı və ya xərçəng əlaməti də ola bilər.

**Yüngül göz damarları**

Göz qapağını aşağı çəkdiyiniz zaman qırmızı və ya çəhrayı damar görməlisiniz. Əgər qan dəyərləriniz aşağıdırsa, anemiyadan əziyyət çəkirsiz. Qadınlarda kişilərə nisbətən daha çox rast gələnən anemiya dəmir çatışmazlığından qaynaqlanır.

**Zəif görmə**

Əgər görmə qabiliyyətinizdə bəzi məqamların əskik olduğunu görsəniz, insult riski ilə üzləşə bilərsiniz. İflic olduğunuz zaman beyninizin görmə ilə məşğul olan hissəsi təsirlənəcək.

**Qabarıq göz**

Bərəlmiş kimi görünən gözlər həddindən artıq aktiv tiroidin əlaməti ola bilər. Qalxanabənzər vəzi həddindən artıq aktiv olan hər 3 nəfərdən 1-də göz problemi var.

**Turan**